Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

11 DEKABR 2019-cu il

№ 220 (4118)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# AZƏRBAYCAN DAHA BİR BEYNƏLXALQ QƏRARI DƏSTƏKLƏYƏRƏK NEFT BAZARINDA ÖZÜNƏ ƏLVERİŞLİ MÖVQE YARATDI...

■ səh. 8 ■

Qarabağ məsələsində Bakı-Moskva münasibətlərinin dinamikası İrəvanda şok effekti yaratdı...
■ səh. 9 ■

ATƏT rəhbərliyindən Azərbaycanda islahatlara dəstək...
■ səh. 3 ■

Azərbaycanın Xəzərdən Avropayadək möhtəşəm enerji dəhlizi...
■ səh. 6 ■

ABŞ Ermənistana bəzi vizaların verilməsi müraciətlərindən kütləvi imtinaya başladı...
■ səh. 5 ■

Sosial şəbəkə "qəhrəmanları" Nəsiminin yubileyinə 650 min ağac əkinini də qaralamağa başlayıblar...
■ səh. 10 ■

Məhkəmələrdə KİV-lə işləyən xüsusi hakimlər təyin edildi...
■ səh. 7 ■

Rusiyanın Avrasiya məkanında ticarətin azalması fonunda Azərbaycanla ticarət dövriyyəsi artır
■ səh. 11 ■

Narkotiklərin təsiri altında törədilmiş cinayətlərin sayında artım dinamikası hiss olunur...
■ səh. 14 ■



■ səh. 5 ■

## Ermənistanda yeni dalğa - saxta genosidin törədicisi kimi Türkiyənin yanına Rusiyanı da qoşdular...





**Erməni genosidini inkar edən beynəlxalq sayt yaradıldı - Ermənilər narahatdır...** ■ səh. 4 ■

**Kolbasa və sosiska istehsalı barədə şok iddia - Çindən idxal olunan xərçəng törədicilərini yeyirik...** ■ səh. 14 ■

**İri ticarət mərkəzlərində yanğın təhlükəsizliyi qaydalarına əməl edilmədiyinə daha bir fakt - «EuroHome»...** ■ səh. 13 ■

■ səh. 2 ■

Əli Kərimli partiya kütləsinin rəyini ortaya çıxarmadan boykot qərarını təkbaşına verib



■ səh. 4 ■

Əsas qınaqlar Gültəkin Hacıbəyliyədir - iki nəfərin söhbəti kənara çıxmamalı idi...



■ səh. 13 ■

Yeni dərman zavodu - Azərbaycanda qiymətləri nə gözləyir...



■ səh. 15 ■

Avroittifaq Azərbaycan universitetlərinin tədris proqramlarında bəzi standartları niyə dəyişməyi tövsiyə edir...



■ səh. 11 ■

Bank depozitlərinin ümumi mənzərəsində maraqlı artım başlayıb - bütün istiqamətlər üzrə...



# Azərbaycan Prezidenti İordaniya Kralı ilə təkbətək görüşdü...

**Dekabrın 10-da rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İordaniya Haşimilər Krallığının Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseyn ilə təkbətək görüşü olub.**

Görüşdə Prezident İlham Əliyev deyib: "Bu səfər ikitərəfli gündəliyimizdəki vacib məsələlərlə bağlı bir daha müzakirələr aparmaq üçün çox yaxşı imkandır. Bu yaxınlarda biz Soçidə görüşdük və bizim söhbət etmək imkanımız oldu. Mən bir daha Sizi ölkəmizə səfərə dəvət etdim. Şadam ki, çox məşğul olmağınıza baxmayaraq, qısa müddət ərzində bizi ziyarət etdiniz. Azərbaycanda Sizi qəbul etmək həqiqətən böyük şərəfdir. Siz burada bizim əziz qonağımızsınız. Əminəm ki, bu səfər ərzində biz qardaşlıq münasibətlərimizin daha da inkişafına birgə töhfə verəcəyik. Bu münasibətlər müxtəlif sahələri əhatə edir. Biz beynəlxalq arenada səylərimizi əlaqələndirməyə çox şadıq. Beynəlxalq təşkilatlarda birbirimizi çox vacib məsələlərlə bağlı dəstəkləyirik. Siyasi təmaslar əladır. Mən iqtisadi göstəricilərə baxdım. Düşünürəm ki, biz daha gərgin çalışmalıyıq. Əlbəttə ki, biz bunu edəcəyik və bu gün bu məsələ ilə bağlı geniş müzakirə aparacağıq. Şadam ki, bu il İordaniyadan Azərbaycana gələn turistlərin sayında artım olub. Artım 20 faizdən çoxdur. Hesab edirəm ki, biz insanların bir-birini daha tez-tez ziyarət etmələri üçün birbaşa hava əlaqəsinin yaradılması imkanını da müzakirə edə bilərik".



İordaniya Kralı II Abdullah isə səmimi qəbula görə təşəkkürünü bildirərək deyib: "Bilirəm ki, beynəlxalq arenada Siz çox vacib rol oynayırsınız. Xüsusilə də bu yaxınlarda keçirilmiş Qoşulmama Hərəkatının Zirvə görüşü ilə bağlı təbriklərimi Sizə çatdırıram.

Dediyiniz kimi, əziz qardaşım, bizim siyasi, kəşfiyyat, hərbi sahələrdə əlaqələrimiz güclüdür. İqtisadiyyat sahəsini inkişaf etdirə bilərik.

Əminəm ki, bu gün müvafiq görüşlərimiz olacaq. Lakin buraya gəlmək istədim ki, Sizə regionda və dünyada oynadığınız rolunuza görə təşəkkürümü bildirim. İnanıram ki, inşallah, regionumuzda olan çağırışların öhdəsindən gəlmək üçün daha çox məsələ ilə bağlı müzakirələr apara bilərik.

**Mən Sizin liderliyinizə, ölkəmizə münasibətdə xeyirxahlığınıza və dəstəyinizə hər zaman arxalanıram. Bu xoş dostluğa görə Sizə təşəkkür edirəm".**

# Əli Kərimli partiya kütləsinin rəyini ortaya çıxarmadan boykot qərarını təkbaşına verib

**9 fevral parlament seçkilərinə ayrı-ayrı partiyaların rəsmi yanaşmaları bu gün cəmiyyətdə ən çox müzakirə edilən məsələlərdən birinə çevrilib. Bunu "Trend"ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.**



## ***Aydın Quliyev:*** *"Əli Kərimli siyasi sistemdə özünü yoxetmə yolundadır və bu seçimin bütün məsuliyyəti şəxsən onun öz üzərindədir"*

Onun sözlərinə görə, cəmiyyət üçün ən təəccüblüsü odur ki, siyasi partiyaların böyük hissəsi - hətta ənənəvi olaraq indiyədək boykot taktikası ilə hərəkət etmiş bəzi partiyalar seçkidə xalqı öz seçicisinə çevirmək yolları üzərində düşündüyü halda, "Milli Şura" subyektləri, xüsusən də AXCP sədri Əli Kərimli cəmiyyəti boykota səsləyir, insanların onun bu çağırışına heç bir məhəl qoymadığını bilməsinə rəğmən çoxillik uğursuz üsulunu davam etdirmək istəyir: "Əslində, Əli Kərimlinin boykot qərarının rəhbərlik etdiyi partiyanın bütün üzvləri tərəfindən dəstəkənib-dəstəklənmədiyi barədə sübutlar yoxdur. Daha dəqiq desək, partiya kütləsinin rəyi soruşulmadan bir şəxsin iddiaları bütün partiya mənsublarının mövqeyi kimi təqdim edilir. Partiyanın səlahiyyətli ali seçkili orqanını çağırmadan hamının adından boykot qərarının verilməsi partiya kütləsinin taleyinə hörmətsizlik və məsuliyyətsiz münasibətdir.

Son icazəsiz aksiyaların dərin ictimai laqeydlik şəraitində keçməsi Əli Kərimli və onun mübarizə üsullarını dəstəkləyənlərin sosial dayaqlardan tam məhrum olduğunu və bunun bərpasının mümkünsüzlüyünü qəti ortaya qoydu. Əli Kərimlinin seçkini boykot qərarı bu nöqteyi-nəzərdən sosial bazasızlığın ört-basdır edilməsi cəhdi kimi də başa düşülə bilər".

Ekspert bildirib ki, son vaxtlar Avropada cinayətkar mühacir biznesində "Milli Şura" subyektlərinin də adının çəkilməsi bu partiya rəhbərinin ölkədə hətta gələcəkdə də siyasi nüfuzunu azacıq bərpa etmək şanslarını tam sıfırladı: "2005-ci ildən başlayaraq Azərbaycanın seçki-siyasi marafonunda kiçik də olsa qələbələr qazanmaq imkanlarını dalbadal itirən Əli Kərimlinin partiyası budəfəki seçkinin son şans olduğuna lazımi dəyəri verə bilmədi. Hazırda əksər analitiklərin fikrincə, bu seçkidən kənarda qalan siyasi partiyaların nəinki özlərini bərpa etmək, hətta mövcudluq şansları tam itirilə bilər. İctimaiyyətdə suallar doğuran məqamlardan biri radikal subyekt təmsilçilərinin parçalanmasıdır. Məsələn, Müsavat Partiyası seçkidə iştirak qərarı verdiyi halda, Əli Kərimlinin boykot qərarında israrı onun kompromissiz pozuculuq rolunda çıxış etdiyini təsdiqləyir. Təsdiq edilir ki, onu maraqlandıran seçki yox, seçki prosesi üstündə hakimiyyətin ünvanına mümkün qədər ittiham bəhanələri istehsal etməkdir. Daimi boykot siyasəti yürüdən siyasi partiyalar ölkənin siyasi sistemindən özlərini sürətlə çıxdaş edirlər. Bu amil bir daha sübut edir ki, sonrakı mərhələlərin seçki-siyasi proseslərində boykotçu radikallara yer olmayacaq.

**Əli Kərimli siyasi sistemdə özünü tam inkar və yoxetmə yolundadır və bu seçimin bütün məsuliyyəti şəxsən onun öz üzərindədir. Əgər onun iddia etdiyi kimi "on, yüz minlərlə" tərəfdarı varsa, bu insanları seçki hüququndan məhrum etmək haqqını ona heç kim verməyib. Əgər o "çoxminli" insanlar bu inhisarçılığa dözürsə, deməli, onlar öz talelərinin oyuncağa çevrilməsi ilə barışır".**

"Azərbaycanda aparılan islahatlar, gənclərin siyasi arenaya daxil olması böyük əhəmiyyət kəsb edir". Bu fikirləri ATƏT Parlament Assambleyasının prezidenti Giorgi Tsereteli jurnalistlərə açıqlamasında bildirib.



# ATƏT rəhbərliyindən Azərbaycanda islahatlara dəstək...

## Elman Nəsirov: «Giorgi Tseretelinin mövqeyi bir daha göstərdi ki, Azərbaycanda həyata keçirilən islahatlar beynəlxalq aləmdə böyük rezonans doğurub»

O deyib ki, Azərbaycan rəhbərliyi reallaşdırdığı islahatlar və dəyişikliklərlə demokratik prinsiplərə sadiqliyini nümayiş etdirir: "Bu, dəyişikliklərin, ilk növbədə, Azərbaycan xalqının maraqlarına cavab verməsinə diqqət çəkir".

ATƏT təmsilçisinin fikrincə, islahatlar Azərbaycanda seçiləcək yeni parlamentin daha enerjili və daha fəal olacağını deməyə əsas verir.

Görünən odur ki, ATƏT PA rəhbərliyi Azərbaycandakı islahatlara dəstək mesajı verdi. Bu onu göstərir ki, Azərbaycanda aparılan iqtisadi islahatlarla yanaşı, siyasi islahatlar beynəlxalq qurumlar tərəfindən maraqla izlənir. Maraqla izlənilməklə yanaşı, dəstəklənir. O baxımdan ATƏT PA rəsmisinin məlum fikirlərini ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən millət vəkili Elman Nəsirovun sözlərinə görə, ATƏT rəhbərliyi tərəfindən Azərbaycanda aparılan islahatlara dəstəyin verilməsi müsbət haldır: "Prezident İlham Əliyev ölkəmizdə islahatları yeni mərhələyə yüksəldib. Bu islahatlar hərtərəflidir, sistemlidir və bütün sahələri əhatə edib. Məqsəd də odur ki, Azərbaycan daha da inkişaf etsin, təkmilləşsin və yeni dövrə uyğunlaşsın. Əsas hədəf budur. O üzdən, ölkədə aparılan islahatlar bütün sahələri əhatə edir. Növbədənkənar parlament seçkilərinin keçirilməsi də eyni məntiqdən qaynaqlanır. Görünən odur ki, Azərbaycanda gedən bu böyük prosesləri beynəlxalq təşkilatlar maraqla izləyirlər. Bu nöqteyi-nəzərdən hesab edirəm ki, məlum açıqlama müsbət əhəmiyyət kəsb edir. ATƏT Parlament Assambleyasının prezidenti Giorgi Tseretelinin mövqeyi bir daha göstərdi ki, Azərbaycanda həyata keçirilən islahatlar beynəlxalq aləmdə böyük rezonans doğurub. Rezonans doğurmaqla yanaşı, müsbət qarşılanmaqdadır.

**Xüsusilə də Tseretelinin Azərbaycandakı demokratik proseslərlə bağlı səsləndirdiyi xoş fikirlər bir daha onu göstərir ki, Avropa məkanında Azərbaycanda həyata keçirilən dərin islahatlar izlənir və təqdir olunur. Bu da o qənaətə gəlməyə əsas verir ki, beynəlxalq müşahidəçilər qarşıdakı seçkiləri müsbət dəyərləndirəcəklər".**

*Vidadi ORDAHALLI*

# Suriya və İraqda terrorçulara qoşulmuş 1477 azərbaycanlıdan 903 nəfəri ölüb, ya da...

**Bugünə qədər münaqişə ocaqlarında olan valideynlərini itirmiş 24 azərbaycanlı uşaq geri qaytarılıb. "Trend"in məlumatına görə, bu barədə "Azərbaycanda seçilmiş icmalarda radikallaşmaya qarşı həssaslıq və dayanıqlığın müəyyən edilməsi üzrə tədqiqat" adlı yekun hesabatda bildirilib.**

Hesabatda qeyd edilib ki, ən azı bir valideynini itirmiş 270 azərbaycanlı uşaq Suriya və İraqda saxlama mərkəzindədir.

Birbaşa döyüşə cəlb edilən və ya travmativ təcrübələrə məruz qalan, silahlı münaqişə zolaqlarından geri qayıtmış uşaqlara məsləhət verməklə onların sosiallaşmasını, eləcə də emosional və ideoloji məsələlərini hərtərəfli əhatə edən xüsusi qayğıya ehtiyacı var. Geri qayıdanların reinteqrasiyalarını asanlaşdırmaq üçün keçmiş döyüşçülər və onların ailə üzvləri üçün xüsusi reabilitasiya mərkəzlərinin qurulmasına ehtiyac var.

Qeyd edək ki, hesabat ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyə yardımı ilə BMT-nin Miqrasiya Agentliyi olan Beynəlxalq Miqrasiya Təşkilatı (DMqT) tərəfindən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə həyata keçirilən "Həssas icmaların dayanıqlığının gücləndirilməsi" layihəsi çərçivəsində hazırlanıb.



Hesabada qeyd edilir ki, 1477 nəfər Azərbaycan vətəndaşı terrorçu təşkilatlara qoşulmaq üçün Suriya və İraqa gedib. 2018-ci ilin oktyabr ayında BMT nümayəndələri ilə görüş zamanı Daxili İşlər Nazirliyi (DİN) tərəfindən verilən ən son rəsmi məlumata əsasən, terrorçu təşkilatlara qoşulmaq üçün Suriya və İraqa gedənlərin ümumi sayı 1477 nəfər (1136 kişi və 341 qadın) olan Azərbaycan vətəndaşlarından 903 nəfərin (749 kişi və 154 qadın) öldüyü və ya itkin düşdüyü güman edilir.

Hesabatda qeyd edilib ki, şimal, cənub və şimal-qərb regionundan Suriya və İraqdakı ekstremist təşkilatlara qoşulmuş yerli sakinlərin ehtimalları göstərir ki, cənub regionundan 22 nəfər olduğu halda, şimal və şimal-qərb regionunlarından olan "döyüşçülərin" (müvafiq olaraq 201 və 114) payı daha yüksəkdir. Rəqəmlərdəki bu uyğunsuzluq ekstremist ideyaların şimal sərhədləri boyu yayılması ilə əlaqələndirilə bilər. Geri qayıtmış keçmiş "döyüşçü"lər tərəfindən ekstremist ideyaların yayılma risqi Azərbaycanın səlahiyyətli orqanları tərəfindən təsdiq edilib və aidiyyatı risqin qarşısının alınması istiqamətində bir sıra tədbirlər görülüb. Həmin şəxslərdən az sayda terrorist Azərbaycana qayıdıb və sanksiyalara məruz qalıb. Daxili İşlər Nazirliyinin təqdim etdiyi rəqəmlərə görə, 309 şəxs ( 261 kişi və 48qadın ) ölkəyə geri qayıdıb (əsasən, Sumqayıt, Qusar, Balakən və Zaqataladan). Hesabata əsasən, ekstremist ideologiyaların yayılma mənbələri, əsasən xarici mənbələr olub və sadəcə o regionlardakı dini sferada mövcud gərginliklərlə qarşılıqlı əlaqə vasitəsilə gücləndirilib.

Qeyd edək ki, hesabat ABŞ Beynəlxalq Inkişaf Agentliyinin (USAID) maliyyə yardımı ilə BMT-nin Miqrasiya Agentliyi olan Beynəlxalq Miqrasiya Təşkilatı (DMqT) tərəfindən Dini Qurumlarla Iş üzrə Dövlət Komitəsi ilə birgə həyata keçirilən "Həssas icmaların dayanıqlığının gücləndirilməsi" layihəsi çərçivəsində hazırlanıb.

"Xaricdə münaqişə ocaqlarından qayıdan Azərbaycan vətəndaşı olan kişilərin 110 nəfərdən çoxu məsuliyyətə cəlb edilib"- deyən S.Heydərov bildirib ki, hazırda proses davam edir. Onun sözlərinə görə, münaqişə ocaqlarında iştirak edən 400-ə yaxın Azərbaycan vətəndaşının vətəndaşlığı ləğv olunub: "Onlar artıq ölkəyə qayıda bilməzlər".

Səyavuş Heydərov deyib ki, yaxın zamanlarda xaricdə münaqişə ocaqlarında yetim qalmış azərbaycanlı uşaqların bir qisminin ölkəyə gətirilməsi planlaşdırılır. O bildirib ki, münaqişə ocaqlarında olan azərbaycanlı qadınların əksəriyyəti hadisələrdə iştirakçı olub: "Onların içərisində həbs və edam edilənlər var. Həmçinin həmin qadınların əksəriyyəti vətəndaşlığı məlum olmayan şəxslərlə evlənib və uşaq dünyaya gətirib. Həmin qadınların da vətəndaşlığının ləğv edilməsi məsələsi gündəmə olacaq".




## YAP növbədənkənar seçkilərdə iştirak qərarı verdi və səlahiyyətli nümayəndələrini təyin etdi

**Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyəti Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərdə partiyanın iştirakı ilə bağlı qərar qəbul edib.**

"Trend"in məlumatına görə, YAP İdarə Heyətinin iclasında ölkəmizdə bütün sahələr üzrə yüksək inkişafın əldə olunduğu, əhalinin rifah halının daha da yüksəldiyi, regionların simasının əhəmiyyətli dərəcədə dəyişdiyi və bu dəyişikliklərin hər bir vətəndaşın həyatına müsbət təsir göstərdiyi diqqətə çatdırılır.

Qeyd olunur ki, bu gün Azərbaycanda geniş və çoxşaxəli islahatlar proqramı Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən çox böyük uğurla həyata keçirilir. Bu siyasət xalqın mütləq əksəriyyəti tərəfindən birmənalı şəkildə müdafiə olunur.

Bu baxımdan 09 fevral 2020-ci il tarixdə Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək seçkilər Yeni Azərbaycan Partiyasının öz mövcud qüvvə və potensialına yeni bir baxış, siyasi sistemin mühüm qolu olan qanunverici hakimiyyətdə yeni bir enerji ilə təmsil olunma imkanı verən əhəmiyyətli bir fürsətdir. Çox böyük seçki təcrübəsi olan, cəmiyyətin bütün sosial təbəqələrini əhatə edən Yeni Azərbaycan Partiyasının bu mühüm siyasi kampaniyada iştirakı siyasi zərurət olmaqla yanaşı, nəhəng elektorata malik olan təşkilat üçün sosial sifarişdir.

Yeni Azərbaycan Partiyasının İdarə Heyəti müzakirələrin yekunu olaraq 9 fevral 2020-ci il tarixdə Milli Məclisə keçiriləcək seçkilərdə iştirakla bağlı qərar qəbul edib.

Yeni Azərbaycan Partiyası İdarə Heyətinin iclasında, həmçinin, Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək seçkilərdə YAP-ın səlahiyyətli nümayəndələri təyin olunub.

**Erməni mediaasının böyük narahatlıq ifadə etdiyi mövzulardan biri də Türkiyənin qondarma "soyqırımla" bağlı atdığı addımlardır. Bildirilir ki, Türkiyə Prezidenti aparatının dəstəyilə yaradılan "1915. gov.tr" adlı saytın fəaliyyəti saxta "erməni soyqırımı" iddialarını ifşa etməkdən ibarətdir.**

# Erməni genosidini inkar edən beynəlxalq sayt yaradıldı - Ermənilər narahatdır...

Erməni mediası şox həyəcanlı şəkildə bu saytın fəaliyyətindən narahatlıq ifadə edir. Sözügedən sayt saxta "soyqırım" iddiaları ilə bağlı hansı işləri görə bilər ki, ermənilər belə narahatdırlar?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ermənilərin məhz bu məsələ ilə bağlı keçirdikləri narahatlıq əbəs deyil: "Biz də izləyirik ki, Türkiyədə qondarma "erməni soyqırımı" ilə bağlı yeni bir veb səhifənin açılması Ermənistanda böyük səs-küyə səbəb olub. "1915. gov.tr" domeni ilə fəaliyyətə başlayan bu sayt Ermənistanın və digər dövlətlərin saxta "soyqırım" iddialarını çürüdə bilən mənbələrə sahibdir. Mən həmin resursun fəaliyyətilə tanışam. Ciddi tarixi sənədləri təqdim edir. Həmin faktlara heç bir siyasi çalar qatmır. Ermənistan bilir ki, belə arqumentlərin qarşısında duruş gətirə bilməyəcək. Aşırı narahatlığın da kökündə məhz bu amil durur. Ermənistan heç vaxt bu mövzuda beynəlxalq hüquqa istinad edə bilmir. Çünki belə bir hadisə tarixdə yaşanmayıb. Onlar bu məsələni daha çox siyasi müstəvidə gündəmə gətirirlər. Başda ABŞ olmaqla, Avropanın və başqa qitələrin parlamentlərində müzakirələr etdirməyə, bununla bağlı qərarlar qəbul etdirməyə çalışırlar. Ermənistan bu məsələni ona görə beynəlxalq hüquqa əsaslanaraq edə bilmir ki, ortada onları məyus edən nümunələr mövcuddur. Fransa hətta bir az da irəli gedərək saxta detallı inkar edənlərə qarşı cinayət məsuliyyətini nəzərdə tutan qanun da qəbul etmişdi. Nəticədə Fransanın ali qurumu həmin qərarı ləğv etdi. Ermənilər bu məsələdən yalnız təbliğat vasitəsi kimi istifadə edirlər. Bunun da Türkiyə üçün heç bir hüquqi məsuliyyəti yoxdur. Türkiyədə yaradılan sayt məhz onların saxta təbliğatına tutarlı cavab verir. Buna baxmayaraq, hər ilin aprel ayında Türkiyə xarici siyasətinin enerjisinin bir hissəsi erməni yalanlarının ifşaya yönəlir.

***Hatəm Cabbarlı:** "Yaradılan sayt ermənilərin yalanlarını ciddi şəkildə ifşa edən vasitə olacaq"*




Bu sayt həmin enerjini kompensasiya edəcək. Çünki ortaya ciddi sənədlər qoyur ki, o da "soyqırım"ın olmadığını tam sübut edir. Qondarma "soyqırım"ı tanıyan bəzi parlamentlər var.

Ancaq həmin qərarların mahiyyətinə baxanda da məlum olur ki, onlar soyqırımların gələcəkdə törədilməməsi üçün belə addım atdıqlarını qeyd edirlər. Heç parlamentlərin qəbul etdiyi sənədlər də Türkiyə üçün hər hansı məsuliyyət yaratmır. Hesab edirəm ki, yaradılan sayt ermənilərin yalanlarını ciddi şəkildə ifşa edən vasitə olacaq".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Müsavat Partiyasının gələn il 9 fevralda keçiriləcək növbədənkənar parlament seçkiləri ilə bağlı qərarı əsasən AXCP-dən ibarət olan Milli Şuranı narahat edir. Hər iki düşərgə sosial şəbəkələri "savaş meydanı"na çevirib.**

# Əsas qınaqlar Gültəkin Hacıbəyliyədir - iki nəfərin söhbəti kənara çıxmamalı idi...



Bu arada sabiq Müsavat başqanı İsa Qəmbərlə Milli Şuranın üzvü Gültəkin Hacıbəyli arasında "müavin" qalmaqalı yenidən alovlanıb. G.Hacıbəyli özünün "Facebook" səhifəsində İsa Qəmbərə yönəlik bir sıra tənqidi fikirlər səsləndirib: "Hörmətli İsa Qəmbər bildirib ki, gərək mən onunla ikilikdə aramızda olan söhbəti ictimailəşdirməyəydim. Söhbət onun mənə 2013-cü ilin payızında Müsavat Partiyasının beynəlxalq məsələlər üzrə başqan müavini vəzifəsini təklif etməsindən gedir. İmtina etmişəm və hesab edirəm ki, düz etmişəm, lakin bu təklifdən imtina etməyim nə məni böyütməyib, nə İsa bəyi kiçiltməyib. Siyasətdə belə təkliflər də, imtinalar da çox olur və bu normal haldır".

G.Hacıbəyli onu da bildirib ki, onu İsa Qəmbərlə olan söhbəti ictimailəşdirməyə müsavatçılar məcbur ediblər: "Hər addımda məni keçmişimlə vuran, mənə qarşı ardıcıl kampaniyalar aparan, on ildir etdiyim fədakarlıqları, verdiyim qurbanları görməzdən gələn və bütün həyatı boyu etdiyim imtinaların bir faizini etməyəcək bəzi partiyadaşlarınız. Və mən məcburiyyət qarşısında, sadəcə, onların yadına salmalı oldum ki, mənim Milli Məclisin deputatı olduğum 2000-2010-cu illər təqvimdə başqan müavini vəzifəsi üçün təklif aldığım, həm də müsavatçıların yekdil səsilə Milli Şuranın komitə sədri seçildiyim 2013-cü ildən əvvəl gəlir...".

Bütün bunlar azmış kimi, G.Hacıbəyli bəyan edib ki, seçkidə Müsavat 3, REAL 2 mandat alacaq. Daha sonra Hacıbəyli hər iki partiyanı nüfuzsuz və zəif olmaqda ittiham edib. Bildirib ki, Müsavat qurultaydan və mühacir biznesinin ifşa olunmasından sonra faktiki nüfuzsuz təşkilata çevrilib, REAL isə sədr İlqar Məmmədovdan ibarət partiyadır.

Görünən odur ki, G.Hacıbəyli iki nəfərin arasında olan söhbəti ictimailəşdirməklə yanaşı, bu addımına hələ haqq qazandırmağa çalışır. Hansı ki, iki nəfərin arasında olan söhbəti ictimailəşdirmək siyasi etikaya xas olmayan bir addımdır.

Maraqlıdır, bəs ekspertlər G.Hacıbəylinin bu addımını necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, iki nəfər arasında olan söhbəti ictimailəşdirmək doğru deyil: "Tərəflər arasında fikir ayrılıqları və bundan irəli gələrək yolların ayrılması baş verə bilər. Zatən, zaman-zaman belə hallar yaşanıb. Bu nəinki bizdə, bütün dünyada belədir. Ancaq bu o demək deyil ki, siyasilər hansısa məqamda 2 nəfərin arasında olan söhbəti ictimailəşdirməlidirlər. Fikrimcə, bu, düzgün yanaşma deyil. Bu baxımdan hesab edirəm ki, iki nəfər arasında olan danışığı ictimailəşdirmək siyasi etikaya uyğun deyil. Bu, siyasi mədəniyyətdən, etikadan kənar bir davranışdır. O üzdən, G.Hacıbəylinin bu addımına haqq qazandırmaq olmaz. Görünən odur ki, Milli Şurada təmsil olunanlar bir sıra müxalifət partiyalarının seçkiyə getməsini həzm edə bilmirlər. Bununla bağlı qaralama kampaniyası aparıb təhqiredici, hədələyici xarakterli fikirlər səsləndirirlər. Bu cür yanaşma isə heç bir məntiqə uyğun deyil".

***Ramil Hüseynov:** "Hesab edirəm ki, iki nəfər arasında olan danışığı ictimailəşdirmək siyasi etikaya uyğun deyil"*

*"Bu, siyasi mədəniyyətdən, etikadan kənar bir davranışdır"*

***Vidadi ORDAHALLI***

**Rusiya Dövlət Dumasının deputatı Konstantin Zatulinin öz ölkəsinin mətbuatında Qaregin Njdeni müdafiə edən yazı ilə çıxış etməsi Ermənistanda və Rusiyada yaşayan erməniləri tamamilə anti-Rusiya ovqatına kökləyib. Ermənistan mətbuatında Rusiyanı tənqid edən materiallar çoxalıb. Həmçinin, erməni KİV-i Rusiyada nəşr olunan bu qəbildən olan materialları aktiv tirajlayır.**

# Ermənistanda yeni dalğa - saxta genosidin törədicisi kimi Türkiyənin yanına Rusiyanı da qoşdular...




## Elşən Mustafayev: *"Belə vasitələrlə onlar Rusiyanın mövqeyini yumşaltmaq istəyirlər"*

Moskvada yaşayan erməni əsilli Dallakyan soyadlı bir siyasi şərhçinin mövqeyi və ona verilən reaksiyaları bu qəbildən saymaq olar. Müəllif Çar Rusiyasını, SSRİ-ni, RSFSR-i və indiki Rusiya Federasiyasını "erməni soyqırımı"nda Türkiyə ilə bərabər iştirak etdiyini və ermənilərin Anadoludan, Mesapotomiyadan dünyanın dörd bir yerinə dağılmasında Rusiya-Türkiyə tandemini xüsusi əsəbi tonla qeyd edib: "Etiraf etmək lazımdır ki, erməni soyqırımının 1915-1917-ci illərlə və Türkiyə Ermənistanı ilə məhdudlaşdırılması düzgün deyil. 1917-1923-cü illərdə ermənilər və erməni dövlətçiliyi üçün ölümcül hadisələr təkcə Osmanlı imperiyasında deyil, Rusiya imperiyasında da baş verib".

Göründüyü kimi, ermənilərin üzləşdiyi "Njde məğlubiyyəti" onları Türkiyə ilə yanaşı, Rusiyanı da özlərinə qarşı "soyqırım" törətməkdə ittiham etməyə vadar edir. Bununla ermənilər nəyə nail olmaq istəyirlər?

Azərbaycan Milli İstiqlal Partiyasının funksioneri Elşən Mustafayev "Bakı-Xəbər"ə bildirdi ki, bu addımları ənənəvi erməni taktikası saymaq olar: "Bunun da mahiyyəti ondan ibarətdir ki, şantajla, böhtan atmaqla istədiyini əldə edəsən. Azərbaycanın gündəmə gətirdiyi bu məsələdə ermənilərin yayınmağa yeri olmadı. İstədilər ki, Njdeni tamamilə başqa rakursdan təqdim etsinlər, amma onun faşist mahiyyətini pərdələyə bilmədilər. Sonra erməni KİV-ində silsilə yazılar getdi ki, guya Rusiya ilə Türkiyə bu məsələni məqsədli şəkildə ortaya atıblar, məqsədləri də diqqəti "Qars müqaviləsi"ndən yayındırmaqdır. Müqavilənin 100 ilinin tamam olmasını əsas gətirib qeyd edirlər ki, guya şərtlərə görə, razılaşmaya yenidən baxılmalıdır. Tarixçilər reaksiya verib ortaya faktlar qoydular ki, hətta müqaviliyə yenidən baxılsa belə, bundan Ermənistan üçün heç bir mənfəət ola bilməz. Həmin tezisin özünü doğrultmadığını görüb indi də başlayıblar saxta "soyqırım" iddialarını işə salmağa. Heç Türkiyəyə olan ittihamları sübuta yetirməmiş, indi də Rusiyanın onlara "soyqırım" etdiyini ortaya atırlar. Tarix boyu Rusiya onlara sahiblik edib, onları indi yaşadıqları yerə yerləşdirib, dövlət olmasında müstəsna xidmətləri olub. Təbii ki, ermənilər üçün belə amillər keçərli deyil. Onlar istənilən vaxt başlarını sığallayanlara da qarşı çevrilə bilirlər.

*"Rusiya bilir ki, istənilən vaxt Ermənistanın başına bir qapaz vurub onu yerində oturtmaq gücünə sahibdir"*

**Ümumiyyətlə, ermənilərə qarşı "soyqırım" iddialarının əsası olmadığı üçün, həmin əmələ görə neçə ölkənin adının hallandırılması da tam əsassızdır. Belə vasitələrlə onlar Rusiyanın mövqeyini yumşaltmaq istəyirlər. Amma xeyri yoxdur. Çünki Rusiya bilir ki, istənilən vaxt Ermənistanın başına bir qapaz vurub onu yerində oturtmaq gücünə sahibdir".**

***Məhəmmədəli QƏRİBLİ***

---

**ABŞ müraciət edən ermənilərin 50 faizdən çoxuna qeyri-immiqrasiya vizasının verilməsindən imtina edir. Belə ki, ABŞ Dövlət Departamenti 2019-cu ildə Amerikaya turist və iş səyahətləri ilə əlaqəli qeyri-immiqrant vizalarından imtina ilə bağlı məlumatları açıqlayıb.**

# ABŞ Ermənistana bəzi vizaların verilməsi müraciətlərindən kütləvi imtinaya başladı...




## Əli Orucov: *"Ermənilərin ABŞ-da törətdikləri qanunsuzluqların və cinayət əməllərinin miqyası o qədər böyükdür ki..."*

Sözügedən hesabatdan məlum olub ki, Ermənistan vətəndaşlarına 51,65% halda belə vizaların verilməsi rədd edilib. Bu göstəriciyə görə ermənilər keçmiş Sovet İttifaqı ölkələrinin reytinqinin ortalarında yer alır.

Bu il ABŞ hökuməti keçmiş SSRİ ölkələrindən ən çox Özbəkistan vətəndaşlarına (68,06%) vizaları rədd edib. Qırğızıstan 67,75%-lə ikinci yerdədir. Vizalarla bağlı ən az imtina isə Azərbaycan (25,43%), Belarus (21,93%), Estoniya (24,81%), Latviya (18,98%) və Litva (18,67%) vətəndaşlarına verilib.

O da məlum olub ki, Ermənistan vətəndaşlarına sözügedən vizaların verilməməsi say baxımından ilbəil artır. Bu amilin özü maraqlı məqamlardan xəbər verir. Bu onu göstərir ki, ABŞ əvvəlki illərdə olduğu kimi, Ermənistana xüsusi maraq göstərmir.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, ABŞ-ın Ermənistana turist və iş səyahətləri ilə əlaqəli qeyri-immiqrant vizaların virilməsindən kütləvi şəkildə imtina etməsi təsadüfi deyil: "Sovetlər dağılandan sonra ermənilər uzun illərin ideoloji hazırlıqlarından və beynəlxalq erməni diasporunun gücündən istifadə edərək dünya ictimaiyyətinə özlərini məzlum, sülhsevər, mədəniyyətli millət kimi təqdim edərək aldada bildilər. Lakin zaman-zaman əsl erməni sifəti üzə çıxmağa başladı. Bu ifşada əsas rolu Azərbaycan oynasa da, digər amillərin də rolu var. Yəni beynəlxalq aləmin ikiüzlü, yaltaq, qorxaq və xəyanətkar ermənilərə qarşı münasibətləri kökündən dəyişdi. Onların ən böyük havadarları olan Fransa, ABŞ kimi dövlətlər artıq ermənilərin əsassız iddialarından, hikkə və qəzəbindən təngə gəlib. Hələ Rusiyanı demirəm. Məlum olduğu kimi, özlərini məzlum kimi təqdim edən ermənilərin Avropada və ABŞ-da cinayətkar şəbəkələri üzə çıxdı. Təxminən 3 il əvvəl ABŞ-da ermənilərdən ibarət böyük bir mütəşəkkil dəstə hüquq-mühafizə orqanları tərəfindən yaxalandı. İstintaq zamanı ağılasığmaz cinayətlər ortaya çıxdı. Narkotik və qaçaqmalçılıq, insan alveri, qarət, soyğunçuluq, zorlama və s. Bu cinayətkar dəstənin törətdiyi cinayətlər ən qorxunc qanqsterlərin və mafiyaların cinayətlərini geridə buraxdı. Təbii ki, Amerika cəmiyyəti də bu kimi cinayətləri bilə-bilə ermənilərə qucaq açmasını mümkünsüz edir. Hələ mən digər cinayətləri demirəm. Ermənilərin ABŞ-da törətdikləri qanunsuzluqların və cinayət əməllərinin miqyası o qədər böyükdür ki, ABŞ hökuməti sonda hərəkətə keçmək, erməni miqrantlara qarşı müəyyən məhdudiyyətlər qoymaq məcburiyyətində qaldı. Gözlənir ki, Ermənistandan olan miqrantlara qarşı gələcəkdə daha çox qadağa qoyulsun. Erməni hər yerdə ermənidir və onların xəyanətkar, cinayətkar xarakterləri gec-tez özünü büruzə verir".

*"Gözlənir ki, Ermənistandan olan miqrantlara qarşı gələcəkdə daha çox qadağa qoyulsun"*

***Vidadi ORDAHALLI***

**Məlumdur ki, bu gün Avropanın enerji bazarında Azərbaycan getdikcə daha güclü mövqe sahibinə çevrilir. Bu məqam, xüsusən də o fonda diqqət cəlb edir ki, Avropanın enerji təhlükəsizliyinə böyük töhfə verən transmilli layihələrinin ərsəyə gəlməsində Azərbaycan indi təşəbbüskar kimi də müstəsna rol oynayır.**

# Azərbaycanın Xəzərdən Avropayadək möhtəşəm enerji dəhlizi...

Rusiya Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun Mərkəzi Asiyanın və Qafqazın Öyrənilməsi Mərkəzinin analitik qrupunun rəhbəri Stanislav Pritçin bu xüsusda kifayət qədər maraqlı məqamlara diqqət çəkərək qeyd edir: "Azərbaycanın energetika sahəsində Avropa İttifaqı ilə əməkdaşlığına dair çox aydın mənzərə yaranır. Özü də Aİ-nin alternativ enerji resurslarında maraqlı olmasına baxmayaraq, bütün enerji layihələrinin əsas sponsoru və təşəbbüskarı məhz Azərbaycandır. "Cənub Qaz Dəhlizi"nə siyasi dəstək var, lakin səhmdarların tərkibinə baxılsa, bunlar SOCAR, Türkiyə şirkətləri, BP-dir. Təşəbbüskar isə yenə də Azərbaycandır. Burada maraqlı bir məqam var. Bir tərəfdən, Qərb iki istiqaməti - Rusiya və Qərb istiqamətlərini, məsələn, "Türk axını"nı və bu yaxınlarda təntənəli şəkildə işə salınan TANAP-ı müqayisə etmək istəyir. Azərbaycanla Rusiyanın eyni bazarlar uğrunda mübarizə apardıqlarını göstərmək bədxahlarımızın maraqlarına uyğundur. Real vəziyyət tamam başqadır. Məsələn, "Türk axını"nın tikintisi yanvarda başa çatacaq və Rusiyanın Türkiyəyə qaz nəql etmək imkanı olacaq. Qazın daha sonra Bolqarıstan ərazisindən nəqli çətinləşib, çünki Sofiya prosesi ləngidir. Müvafiq olaraq, burada əməkdaşlıq üçün imkan yaranır. Özü də Azərbaycanın mövqeyi həmişə bundan ibarət olub ki, biz Avropanın cənub bazarlarına Rusiyanın "Qazprom"una lüzumsuz rəqabət yaratmadan çıxmağa hazırıq, çünki bu, Azərbaycanın maraqlarına uyğun deyil".

Ekspert vurğulayır ki, Azərbaycan enerji sektorunda bununla ciddi əməkdaşlıqda maraqlıdır və bu da onun enerji siyasətinin böyük uğuru sayıla bilər. Məsələ ilə bağlı "Əl-Cəzirə" portalı da yazır ki, Azərbaycan həqiqətən də çox uğurlu enerji siyasəti yürüdür, həm özünün, həm də əsas müttəfiqi olan Türkiyənin mövqeyini daha güclü hala gətirir: "10 il və ya daha çox müddətdə Avropa enerji təchizatından asılılığını azaltmağa çox çalışır. Keçmişdə karbohidrogenlər Qərblə Sovet İttifaqını, daha sonra Rusiya Federasiyasını birləşdirməyə və tərəfdaşlığa kömək edib. Ancaq bu gün enerji əlaqələri olduqca mürəkkəbləşib. Cənub-Şərqi Avropa bu rəqabətin gücləndiyi bölgələrdən biridir. NATO dekabr ayının əvvəlində Birləşmiş Krallıqdakı toplantısına çağırış edərkən, Serbiya prezidenti Aleksandar Vuçiç Soçidə Putinlə görüşüb. Səfər zamanı Vuçiç "Türk axını"nın və ya "Balkan axını"nın Serbiya qolunun tamamlanması ilə öyünüb.

Qara dəniz, Türkiyə və Cənub-Şərqi Avropadan keçən təbii qaz boru kəməri "Qazprom"un Ukrayna vasitəsilə tranzitini azaltmaq üçün uzunmüddətli strategiyasının bir hissəsidir. "Türk axını-2" olaraq da bilinən "Balkan axını" Türkiyə şəbəkəsini Bolqarıstan, Serbiya və Macarıstan vasitəsilə Avstriyanın Baumqarten bölgəsindəki qaz mərkəzinə bağlayır. O, həm Balkanlara, həm də Mərkəzi Avropaya xidmət edəcək. Bunlar "Şimal axını-2" ilə birlikdə Rusiya qazının Avropanın əsas istehlakçı ölkələrinə fasiləsiz nəqlinə və bunun nəticəsində yaranan bütün ticari və geosiyasi qazanclara zəmanət verir. Amma Rusiya Balkanlara qaz tədarükündə yeganə oyunçu deyil. Region ölkələri, hətta Kremlə rəğbət bəsləyənlər alternativ tədarük üçün addımlar atır. İlk dəfə 1990-cı illərdə Xəzər regionu və Yaxın Şərqdən alternativ enerji mənbəyi kimi təklif olunan "Cənub Qaz Dəhlizi" nəhayət, reallığa çevrilir.

Noyabrın 30-da prezidentlər Rəcəb Tayyip Ərdoğan və İlham Əliyev TANAP-ın tamamlandığını vurğulayan Türkiyə və Yunanıstan qaz şəbəkələrini birləşdiriblər. İlk mərhələdə bu, Yunanıstan və Bolqarıstan kimi ölkələr üçün əhəmiyyətli alternativ bir mənbədir. İki ölkənin TANAP-ın arxasında duran şirkətlərlə - "Şahdəniz", BP beynəlxalq konsorsiumu, Azərbaycanın ARDNŞ, Türkiyənin TPAO, Norveçin "STATOIL" və digərləri ilə bir milyard kubmetr üçün müqavilələri var. TANAP Yunanıstan-Türkiyə sərhədi ilə İtaliya arasında olan TAP kəmərinə qoşulacaq və qazı Albaniyaya, bəlkə də Qərbi Balkanlardakı digər ölkələrə çatdıracaq. TANAP Türkiyə üçün strateji nailiyyətdir. Uzun müddətdir ki, o, Avropanın neft və qaz istehsalçıları və əsas idxalçıları arasındakı mövqeyini əsas götürərək daha böyük bir istehlakçıdan tranzit ölkəyə keçmək üçün səy göstərib. Azərbaycan qazının Balkanlara gəlişi bu mənzərəni nəticəyə çevirir. Azərbaycanın özü ixracat istiqamətlərini şaxələndirməyə çalışıb. Sovet İttifaqından müstəqillik qazandıqdan sonra ölkə Rusiyaya bağlı olmayan neft və qaz infrastrukturuna sahib olub.

2006-cı ildə Türkiyənin Ceyhan strateji dəniz limanına axan Bakı-Tiflis-Ceyhan (BTC) boru kəmərinin açılışı ilə Azərbaycan öz neftini beynəlxalq bazarlara çıxara bilib. Elə həmin il açılışı olan Bakı-Tiflis-Ərzurum qaz kəməri Azərbaycan qazının Gürcüstan və Türkiyəyə tədarükünə imkan verib. İndi TANAP-la Azərbaycan təbii qazını Aİ-yə sata və "Qazprom"dan bazar payının bir hissəsini ala bilər. Ankaranın çoxdan bəri davam edən ambisiyası TANAP-ın 16-31 milyard kubmetrə qədər artırılması, qazın Türkmənistan, Şimali İraq və İran kimi digər istiqamətlərdən alınmasıdır. Kartlarını düzgün oynasa, Türkiyə özünü ticarət mərkəzi və ən yaxşı enerji gücü edə bilər. Yanvarın 8-də Putin Türkiyə bazarına xidmət edən "Türk axını"nın ilk açılışında iştirak etmək üçün İstanbula gələcək. Ancaq bu dəfə Ərdoğanın əli daha güclüdür. TANAP-ın təhvil verəcəyi 6 milyard kubmetr Rusiya ixracının dörddə birinə bərabərdir. Daha ucuz qiymətlər Türkiyəyə ABŞ, Əlcəzair, Nigeriya və Qətərdən mayeləşdirilmiş təbii qaz alışını artırmağa imkan verib. Türkiyənin enerji muxtariyyətinə can atması onu həm Aİ, həm də ABŞ üçün xoş tərəfdaş halına gətirir.

Bu fonda TANAP-TAP bağlantısının açılması Yunanıstan və Bolqarıstanın şəbəkələrini birləşdirən əlaqə quruculuğu üzərində irəliləməyə kömək edib. Cənub-Şərqi Avropada transsərhəd enerji bağlantısı həm ABŞ, həm də Türkiyənin maraqlarına uyğundur. Aİ də, Ərdoğanla gərgin və tez-tez qarışıq münasibətlərinə baxmayaraq, "Cənub Qaz Dəhlizi"nin möhkəm tərəfdarı olub. Bu, Rusiyanın 2006 və 2009-cu illərdə Ukrayna vasitəsilə qaz tədarükünü müvəqqəti olaraq dayandırmasından sonra başlanan diversifikasiya səylərinə uyğundur".

***Nahid SALAYEV***



# Məhkəmələrdə KİV-lə işləyən xüsusi hakimlər təyin edildi...

**Ədliyyə Nazirliyi və Məhkəmə Hüquq Şurasının təşkilatçılığı ilə 10 dekabr - Beynəlxalq İnsan Hüquqları Gününə həsr olunmuş "İnsan hüquqlarının qorunması media müstəvisində" mövzusunda keçirilən tədbirdə Ədliyyə Nazirliyi İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova bildirib ki, məhkəmələrdə kütləvi informasiya vasitələri (KİV) ilə işləyən xüsusi hakimlər təyin edilib.**



***Fərhad Mehdiyev:** "Bu yanaşma ədalət məhkəməsinə təzyiqin qarşısının alınmasından irəli gəlir"*

***Mehman Muradlı:** "Sensasiya, oxucu yığmaq üçün verilən yanlış məlumatların aradan qaldırılması baxımından bu addımı doğru sayıram"*

Onun sözlərinə görə, nazirlik KİV-lə birgə işləməyə xüsusi diqqət yetiriləcək.

Belə bir qərarın qəbulu hansı zərurətdən doğub və bunun gələcək KİV-məhkəmə əməkdaşlığına nə kimi təsiri olacaq?

Hüquq professoru Fərhad Mehdiyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu qərarın qəbulu müəyyən zərurətdən irəli gəlib: "Buna zərurətin olub-olmadığı mübahisələndirilə bilən məsələdir. Ancaq qərar qəbul olunubsa, biz fakta münasibət bildirməliyik. İlkin görsənən budur ki, nazirlik məhkəmə işləri haqda veriləcək məlumatların mediaya verilməsi üçün belə addım atıb. Adətən məhkəmə işləri KİV-də tam çılpaqlığı ilə açıqlanmamalıdır. Fakt qismində açıqlana bilər, amma proses yukunlaşmadan məhkəmədə danışılan məsələlərə rəy bildirilməməlidir. Bu yanaşma ədalət məhkəməsinə təzyiqin qarşısının alınmasından irəli gəlir. Belə olanda hakim işinə sərbəst baxıb qərarını verə bilir. Avropa İnsan Haqları Konvensiyasının özü də ədalət mühakiməsinin tərəfsizliyini qorumaq üçün ifadə azadlığının müəyyən mənada məhdudlaşdırılmasını nəzərdə tutur. Bu, Konvensiyanın 10-cu maddəsində öz əksini tapıb. Amma gəlin məsələyə bir az da geniş kontekstdə baxaq. Məhkəmə prosesləri ilə bağlı peşəkar rəy bildirən müstəqil vəkillərə də təzyiqlərə son qoyulmalıdır. Əgər biz bütün bunları insan haqları üçün edириksə, mütləq mənada bu amili nəzərə almalıyıq. Bir neçə belə hal olub ki, vəkillər müdafiəçi kimi çıxdıqları işlərlə bağlı KİV-ə məlumat verdikləri üçün müəyyən təzyiqlərlə üzləşiblər. Məhkəmə islahatları kompleks yanaşma tələb edir".

Hüquqşünas hesab edir ki, azyaşlılar, ailə və biznes sirrinin qorunması məsələsi də qorunan məlumatlar sırasına aiddir: "Bununla bağlı hətta tərəflər məhkəmə iclasının qapalı keçirilməsini tələb edə bilərlər. Hüquqdakı prinsip budur ki, məhkəmədə baxılan işlə bağlı mediada təhlil aparılmamalıdır. Bu, birbaşa hakimə təsir göstərir. Ancaq bunu da anlayırıq ki, bəzi işlərə cəmiyyətin böyük marağı olur. Həmin işlərlə bağlı cəmiyyəti məlumatsız da qoymaq olmaz. Yəqin ki, həmin tənzimlənmiş məlumatlar məhz yeni yaradılan mexanizmlə cəmiyyətə təqdim ediləcək. ABŞ praktikasından sizə deyim ki, orada məhkəmədən şəkil çəkməyə icazə verilmir. Mediamız da çalışmalıdır ki, baxılan işləri işıqlandıranda onu məhkəməyə təzyiq formasında yazmasın".

Digər hüquqşünas, Azərbaycan Vəkillər Kollegiyasının üzvü Mehman Muradlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu sahədə çox zəruri addımlar atılıb: "Elektron məhkəmə sisteminə keçiddən sonra baxılan işlərlə bağlı bütün məlumatlar portala yüklənir. Dediyiniz addım KİV-lə işin düzgün koordinasiyasını təmin etmək, bəzi yanlışlıqların aradan qaldırılması və məlumatın media tərəfindən tez əldə olunmasına görə konkret hakimə tapşırılıb. Bundan əvvəl bu işlərlə məhkəmə köməkçiləri və ya dəftərxana işçiləri məşğul olurdular. KİV nümayəndələri istəyəndə onlardan ətraflı cavab ala bilmirdilər. Bəzən həmin məhkəmə işləri tamamilə təhrif olunmuş formada KİV-də verilir. Sensasiya, oxucu yığmaq üçün verilən yanlış məlumatların aradan qaldırılması baxımından bu addımı doğru sayıram".

***Məhəmmədəli QƏRİBLİ***

---

# Daha bir vacib sosial aksiyada radikalların arqumentsizliyinin şahidi olduq - ağac əkməyi siyasiləşdirmək düzgündürmü...

**Məlum olduğu kimi, dekabrın 6-dan dahi Azərbaycan şairi Nəsiminin 650 illik yubileyi ilə bağlı 650 min ağac əkilməsi aksiyasına start verilib. Aksiyada könüllü olaraq çoxlu sayda insan iştirak edib.**



***Samir Adıgözəlli:** "Ən azı, böyük bir xeyriyyəçi addımdan özlərinə pay götürmüş olardılar"*

Hətta hakim YAP müxalifətə bununla bağlı çağırış da edərək, onları da ağac əkməyə dəvət edib.

Aksiya zamanı Siyavuş Novruzov deyib ki, insanlar öz təşəbbüsləri ilə bu kampaniyaya dəstək verirlər:"Bu gün burada müxalifətin qanuni və qanunsuz keçirdiyi aksiyadan qat-qat çox adam iştirak edir". Onun sözlərinə görə, YAP bu təşəbbüsə qoşularaq ağacəkmə kampaniyasında iştirak edir:"70-dən artıq rayonda hərəsində 300 nəfərdən az olmayaraq YAP üzvü bu kampaniyaya qatılıb. Ağacların əkilməsi və onlara qulluq edilməsi diqqət mərkəzindədir. Biz yaratdığımız qruplarda gənclər tərəfindən ilboyu monitorinq aparılacaq. Bu monitorinqlər quruyan ağacların dəyişdirilməsi, onlara qulluğun göstərilməsi, yaşıllıq artırılması üçün aparılacaq. Bu təşəbbüs ölkənin ekologiyası üçün gözəl layihələrdən biridir. Biz də böyük məmnuniyyətlə qoşuluruq. Burada kifayət ağac əkilib. Müxalifəti də dəvət edirik ki, insanlar üçün səmərəli işlə məşğul olsunlar, ağac əksinlər, sosial layihələrin həyata keçirilməsində aktiv iştirak etsinlər. Ölkə əleyhinə qalxmaqla deyil, əməlləri ilə xalqa xidmət etsinlər".

Bizim müşahidələrimiz isə göstərib ki, müxalifətin heç bir qurumu bu aksiyada iştirak etməyib. Radikal dairələrin bu addımını necə dəyərləndirmək olar? İctimai Siyasi Proseslər Beynəlxalq Əlaqələr Mərkəzinin (İSBAM) rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, radikalların bu davranışı siyasi etiketə uyğun deyil: "Elə məsələlər var ki, orda iqtidar-müxalifət münasibətləri, baxışları kənara qoyulmalıdır. Biz bu addımları dünyanın ən inkişaf etmiş ölkələrinin də təcrübəsində görürük. Məsələn, Dağlıq Qarabağla bağlı məsələdə bizim mövqeyimiz haçalanmamalıdır. Sabah ölkə başçısı Qarabağla bağlı bir mitinq çağırsa, müxalifətin ən radikal kəsimi də orda var qüvvəsi ilə iştirak etməlidir. Bundan boyun qaçırarlarsa, deməli, demək ümummilli maraqlara qulluq etmirlər. Ağacəkmə kampaniyasını da bu qəbildən saya bilərik. Müxalifət daha çox ölkədə ağacların kəsilməsindən şikayət edir. Onda ölkəmizin ekoloji tarazlığının qorunmasına xidmət edən bu aksiyaya niyə qatılmırlar? Məgər həmin ağacların bunların özlərinə, övladlarına bir xeyiri dəyməyəcək? Bu cür xeyrxah, ümummilli maraqlara xidmət edən aksiyaları qəti siyasiləşdirmək olmaz. Mütləq mənada bütün siyasi qüvvələr həmin aksiyaya öz dəstəyini əsirgəməməliydi. Belə addımlar həm də milli birliyə, vətəndaş həmrəyliyinə xidmət edər. Biz müharibə şəraitində yaşayırıq, belə göstəricilərin əldə olunmasına ciddi ehtiyacımız var. Aksiyada 650 min ağac əkildi. Müxalifət olmasa da bu həyata keçirildi. Amma onların iştirakı özləri üçün faydalı olardı. Ən azı, böyük bir xeyriyyəçi addımdan özlərinə pay götürmüş olardılar".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan daha bir beynəlxalq qərarı dəstəkləyərək neft bazarında özünə əlverişli mövqe yaratdı...

**Dünya bazarlarında neftin qiymətinin yenidən artımı fonunda prosesin nə qədər davam edəcəyi indi ekspert dairələrində xüsusi müzakirə mövzusudur. Neft İxrac Edən Ölkələr Təşkilatına (OPEC) üzv və qeyri-OPEC ölkələrinin (OPEC+) son iclasından sonra bu məsələ ətrafında birmənalı fikir səsləndirilmir.**

Qeyd edək ki, barəsində bəhs edilən iclasdan sonra neftin qiymətində bu ilin iyunundan indiyədək ən böyük həftəlik artım qeydə alınıb.

İndi "Brent" neftinin bir barreli London birjasında 65 dollara, "Light" markalı neftin bir barreli isə Nyu-York birjasında 60 dollara alıcı axtarır. Azərbaycan neftinin qiyməti isə 70 dollarlıq həddə çatıb. Bütün bunlara əsas səbəb OPEC+ ölkələrinin son iclasıdır. Belə ki, üzv ölkələrin sutkalıq neft hasilatının daha 500 min barrel azaldılması barədə qərarı "qara qızıl"ın qiymətinə yuxarı istiqamətli təzyiq göstərib. Bir daha xatırladaq ki, Vyanada OPEC+ üzrə gələn ilin ilk rübündə gündəlik neft hasilatının daha 500 min barrel azaldılması ilə bağlı qərar qəbul olunub. Bununla da OPEC+ üzrə gündəlik neft hasilatının azaldılması ilə bağlı öhdəlik 1,7 milyon barrelə çatdırılıb. Hasilatın azaldılması ilə bağlı əlavə həcmlərin bölünməsi OPEC+ ölkələri arasında proporsional qaydada aparılıb. Azərbaycan da hasilatın əlavə həcmlərdə azaldılması ilə bağlı yeni razılaşmaya qoşulub. Ölkəmiz müvafiq olaraq gündəlik neft hasilatını 20 min barreldən əlavə daha 7 min barrel azaldacaq. Beləliklə, öhdəliyi 27 min barrelə yüksələn Azərbaycan 2020-ci ilin yanvarından etibarən gündəlik hasilatı 769 min barrel həcmində saxlamalıdır. Ölkəmiz indiyə kimi gündəlik neft hasilatını 20 min barrel azaltmaqla bağlı öhdəliyini artıqlaması ilə yerinə yetirib.

Hesab edilir ki, OPEC+ ölkələrinin addımı qarşıdakı dövr ərzində neftin qiymətini yüksək həddə saxlamağa xidmət edəcək. ABŞ-ın qabaqcıl investisiya banklarından olan "Goldman Sachs"ın 2020-ci ilə dair neftin qiyməti üzrə proqnozu da bunu təsdiq edir. Bank bildirir ki, gələn il "Brent" markalı xam neftin bir barrelinin orta qiyməti 63 dollar olacaq. "Goldman Sachs"ın əvvəlki proqnozu isə 60 dollar idi. "Goldman Sachs" bu proqnozu məhz OPEC+ üzrə sutkalıq neft hasilatının gələn ildən daha 500 min barrel azaldılmasına dair qərar qəbul ediləndən sonra verib. Neft məsələləri üzrə rus ekspert İvan Danilov isə bildirir ki, OPEC+ formatı, xüsusən də burada Rusiya - Səudiyyə Ərəbistanının əməkdaşlığı neftin gələn il ərzində yüksək qiymət həddində qalmasını şərtləndirəcək: " OPEC+ formatı effektivliyini təsdiqləyir və bura Səudiyyə Ərəbistanı vasitəsilə ABŞ artıq əvvəlki kimi təsir göstərə bilmir. Səudiyyə dövlət neft şirkəti "Saudi Aramco"nun səhmləri ətrafında baş verənlər də bunu təsdiq etdi. Burada diqqət etməli bir vacib məqam var. "Aramco" səhmlərini London və ya Nyu-York birjalarında yerləşdirmək istəyirdi, ancaq sanksiya və Səudiyyə səhmlərinə həbs qoyulma riskləri, ABŞ qanunvericiləri tərəfindən anti-Səudiyyə qanunvericilik təşəbbüsləri və digər siyasi çətinliklər qiymətli kağızların Səudiyyə birjasında yerləşdirilməsinə səbəb oldu. Prosesdə əsasən yerli vətəndaşlar, eləcə də Fars körfəzi və Cənub-Şərqi Asiyadan olan investisiya fondları iştirak edib. Amerikalı və britaniyalı sərmayədarlar isə qıraqda qalıb. Qərb mediası bu durumda aktiv şəkildə Qərb pullarının Səudiyyə şirkətinə getməməsinə çağırışlar edib. Bunun fonunda indi Ər-Riyadın "OPEC + Rusiya" neft ittifaqının gələcək fəaliyyəti çərçivəsində düşmənlərinin məntiqinə əsaslanması qəribə olardı.

İkincisi, OPEC+ ittifaqının fəaliyyətində diplomatik nöqsanların, qalmaqalların və çətinliklərin ortaya çıxmasına ümid var idi. Bu onunla bağlı idi ki, Səudiyyə Ərəbistanında neft və Rusiya ilə danışıqlara cavabdeh olan nazir başqası ilə əvəz olunmuşdu. Rusiyaya tərəfdaş olan hər bir ölkədə baş verən siyasi dəyişikliklər isə hər zaman Qərbdəki ekspertlərin və jurnalistlərin müəyyən bir hissəsinə ümid verir: "Ura! Yeni rəhbərlər nəhayət görəcəklər ki, Rusiya ilə dost olmaq və əməkdaşlıq etmək lazım deyil". Əslində isə tərsinə alınır ki, bu da Rusiyanın "ölməsi", iqtisadiyyatının "parama-parça olması" və onun özünün "diplomatik izolyasiyada" olması haqqında "informasiya qabarcığı"nda yaşamağa öyrəşmiş insanları çox təəccübləndirir və kədərləndirir. Nüfuzlu "The Wall Street Journal" nəşri mənbələrinin Vyanadakı görüşdə Rusiya-Səudiyyə Ərəbistanı dialoqunun necə baş tutduğuna dair təəssüratlarından yazır: "Ertəsi gün şahzadə Əbdüləziz ibn Salman OPEC-ə daxil olmayan 10 ölkədən olan istehsalçılarla görüşü dayandırdı ki, rusiyalı həmkarı Aleksandr Novak ilə ikitərəfli görüş keçirsin. OPEC-ın zalında olan mənbələrdən birinin dediyinə görə, bu iki rəsmi Rusiya istehsalı olan qaz kondensatının ixtisar kvotasından azad edilməsi və onun hasilatının Rusiya tərəfindən müstəqil şəkildə qiymətləndirilməsi ilə bağlı fikir ayrılıqlarını aradan qaldırmağa çalışırdı. Onlar geri qayıdanda gülümsəyirdilər", - mənbə bildirib.

Danışıqların nəticələri birmənalı olaraq Rusiya və digər qeyri- OPEC ölkələri üçün müsbət sayıla bilər. Neft ittifaqının hasilatı sutkada daha 500 min barrel azaltmaq qərarı bir çox analitik üçün sürpriz oldu, lakin bu məntiqli idi. Səudiyyə Ərəbistanı tərəfindən hasilatın könüllü, yeni mövcud paya əlavə ixtisarı gündə 400 min barreldir. Rusiyaya gəldikdə isə, hasilatın əlavə ixtisarı 70 min barrel təşkil edəcək". İvan Danilov qeyd edir ki, məhz bütün bunlar qarşıdakı dövr ərzində neftin qiymətinin yüksək həddə qalmasını, hətta gələn ilin ilk rübündə 80 dolları keçməsini şərtləndirəcək. ABŞ-ın şist neft haslatı ilə buna mane olması isə sadəcə mümkünsüz sayılır: "Neftin bir barrelini 20 dollar dəyərində görmək və bəzi neft ölkələrinin ixracat qazancı ilə bağlı yaşayacağı problemlərdən həzz almaq istəyənlərin son ümidi belə bir tezisə bağlı idi: "Onların ixtisar edə biləcəyi hər şeyi Amerikanın şist şirkətləri hasil edəcək və onlar OPEC-in əlindən bazar payını alaraq neftin qiymətini çökdürəcəklər". Bir tərəfdən belə bir sual verə bilərik: şist nefti belə yaxşıdırsa, nə səbəbdən şist şirkətləri bir-birinin ardınca iflas edir? ABŞ-ın səhm bazarının qalan hissəsinin böyüdüyü və rekord qırdığı bir vaxtda nə səbəbdən bu şirkətlərin səhm və istiqrazlarının qiymətləri aşağı düşür? Digər tərəfdən sözü həmin şirkətlərin özlərinə verib, Texasda, "şist inqilabının" ürəyində yerləşən amerikalı şist şirkətlərinin rəhbərlərinin və səhmdarlarının dediklərinə qulaq asa bilərik.




Kanadanın maliyyə televiziya kanalı "BNN Bloomberg" xəbər verir ki, Texasın neft şirkətləri hazırda şist neftinin istehsalının ciddi zəiflədiyini deyir. Hasilatçılar maliyyə baxımından çətinliklərlə üzləşiblər, onların ehtiyatlarının səviyyəsi aşağı düşüb, şist şirkətlərinin səhm və istiqraz təkliflərinə maraq azalıb. Bu fonda xatırladaq ki, gələn il Vyanadakı OPEC+ qərargahında bir neçə dəfə görüşəcək üzv ölkələrin enerji nazirlərinin simalarında, çox güman ki, təbəssüm üçün əlavə səbəblər olacaq". Ekspert bildirir ki, belə vəziyyətdə qiymətlərin kifayət qədər yuxarı həddə olması da tamamilə gözləniləndir. Təbii ki, bu vəziyyət hasilatçı ölkələrin, o cümlədən Azərbaycanın maraqlarına tam cavab verir. Hesab edilir ki, gələn il ərzində Azərbaycan neft satışından nəzərdə tutulduğundan əlavə daha bir neçə milyard əlavə qazanc götürəcək. Bütün bunlar həm də OPEC+ formatının getdikcə artan uğurunun real təsdiqi sayılır.

***Ramil QULİYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağ məsələsində Bakı-Moskva münasibətlərinin dinamikası İrəvanda şok effekti yaratdı...

**Dağlıq Qarabağ münaqişəsinin çözümü ilə bağlı hadisələrin inkişaf axarı problemin sülh yolu ilə həllini tapacağına dair hələ də yetərincə nikbinlik yaratmır. Artıq dəfələrlə qeyd olunduğu kimi, bütün bunlara əsas səbəb Ermənistanın davam edən qeyri-konstruktiv mövqeyi, beynəlxalq hüquq və normaları görməzdən gəlməsidir.**

Azərbaycan vəziyyət bu şəkildə davam edəcəyi təqdirdə artıq digər variantların işə düşəcəyini də bütün dünyanın, o cümlədən işğalçı Ermənistanın diqqətinə çatdırıb.

Qeyd edilənlər fonunda ekspertlər bildirir ki, əslində, Ermənistana münaqişə ilə bağlı verilən vaxt limiti də tükənmək üzrədir. Ermənistan artıq gələn il ərzində məsələnin dinc çözümü üçün müvafiq addımlar atmasa, təhlilçilər konfliktin çözümünün qaynar fazaya keçmə ehtimalının reallaşmasının qaçılmaz olduğunu vurğulayır. Elə almaniyalı politoloq Uve Halbax da məsələyə bu rakursdan yanaşır. O vurğulayır ki, Qarabağ münaqişəsi zonasında vəziyyətin əhəmiyyətli dərəcədə gərginləşməsi mümkündür. Onun sözlərinə görə, tərəflərin nazirlər səviyyəsində növbəti görüş vaxtını müəyyənləşdirməsinə baxmayaraq, danışıqlar və ya görüşlər təhlükə altına düşə bilər. Ekspert qeyd edir ki, vasitəçilər, yaxud ayrı-ayrı siyasi xadimlər sərt ritorikadan çəkinmək, müsbət atmosfer yaratmaq zərurəti haqqında danışdıqda yarana biləcək təhlükələrdən yayınmağa çalışırlar: "Tərəflər adətən bu qanunu qoruyurlar və bu dəfə də bunu etdilər. Düşünmürəm ki, bunun nəticəsində indi nikbinlik ifadə etmək fürsətinə malikik. Biz bir daha əmin olduq ki, erməni tərəfinin güzəştlər vasitəsilə problemi həll etmək hazırlığı yoxdur. Bu, ən pisi də daxil olmaqla, istənilən ssenaridən danışmağa imkan verir". Onun sözlərinə görə, gərginlikdən yayınmaq üçün hər bir imkanı istifadə etmək lazımdır.

Əslində, Ermənistanın özündə də indiki vəziyyətdən ciddi narahatlıq keçirənlərin sayı az deyil. Ermənistanın"Milli Gündəm" partiyasının həmtəsisçisi Avetik Çalabyan bu xüsusda bildirir: "Azərbaycan danışıqlar prosesində qəti mövqeyini ifadə edib və bunun arxasında gücün durmasını da gizlətmir. O, əvvəlcə gələn ilin müdafiə büdcəsini 22% artırmaq haqqında bəyanat verdi, həmçinin bildirdi ki, bundan təxminən 1 milyardı əsasən Rusiyadan yeni silahların alınması üçün planlaşdırılır". Onun sözlərinə görə, xarici işlər nazirlərinin son danışıqları ərəfəsindəki Azərbaycanın Slovakiyadakı səfirliyi ölkənin Xarici İşlər Nazirliyinin rəsmi mövqeyini dərc edib və açıq şəkildə qeyd edib ki, danışıqların məqsədi işğal olunmuş ərazilərdən erməni silahlı qüvvələrinin çıxarılmasıdır, Qarabağ məsələsinin həlli isə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, Dağlıq Qarabağın azərbaycanlı icmasının maraqlarının nəzərə alınması ilə mümkündür: "Ermənistan Azərbaycanın fəaliyyətlərinə cavab verə bilmir. Burada xatırladım ki, əvvəlcə Ermənistan hökuməti müdafiə xərcləri artırılmayan 2020-ci ilin büdcə layihəsini təqdim etdi. Biz hələ üç dəfə Azərbaycandan geri qalırıq, gələn il isə bu fərq daha da böyüyəcək. 2017-2019-cu illərdə ağır silahların alınması proqramı tezliklə bitəcək, lakin hər hansı yeni plan haqqında söhbət yoxdur. Yeni silahlanmada Azərbaycandan çox geridə qalırıq. Digər tərəfdən, xarici işlər nazirimiz BBC-yə məşhur müsahibəsində Ermənistanın Qarabağ müharibəsində hərbi cinayətlər həyata keçirdiyini demək olar qəbul etdi. Bütün bunları yekunlaşdırsaq, başa düşərik ki, biz olduqca əlverişsiz vəziyyətdəyik. Azərbaycan hakimiyyəti bunu aydın başa düşür". Çalabyan bildirib ki, belə vəziyyətdə Azərbaycan yeni silahlar almaqla və bunun əksəriyyətinin Rusiya istiqamətində həyata keçirilməsinə nail olmaqla hərbi mövqeyini də xeyli gücləndirməklə Ermənistana mesajlar verir. Məhz bu fonda Rusiya xarici işlər naziri Sergey Lavrovun Bakıya səfəri zamanı səsləndirdiyi "Azərbaycana lazım olan hər bir şeyi Rusiya ona satacaq" fikri Ermənistanda indi ən çox müzakirə predmeti olan məqamlar sırasında yer alır. Çalabyan xatırladır ki, bundan bir müddət əvvəl Ermənistanın baş naziri Nikol Paşinyan KTMT ölkələrinə müraciət etmişdi ki, Azərbaycana silah satmasınlar:"İndi təşkilatın yaradıcısı və faktiki olaraq başçısı olan ölkə, üstəlik Ermənistanla müttəfiqlik münasibəti saxlayan dövlət Azərbaycana hər cür silah satılmasına yaşıl işıq yandırırsa, digər ölkələrə nə demək olar? ". Erməni ictimaiyyəti bu münasibətə görə narazı olsa da, onları faktiki olaraq heç kim vecinə almır. Ekspertlər isə bildirir ki, əslində, prosesdə rəsmi İrəvanın mövqeyi qətiyyən qəbuledilməzdir. Çünki indiki mövqe ilə İrəvan suveren dövlətlərin münasibətlərinə müdaxilə etmək cəhdində bulunur. Halbuki, indiyədək ermənilər başa düşməyiblər ki, onlar əhəmiyyətli tərəfdaş yox, əhəmiyyətli platformadırlar. Ruslara və ya Qərbə də buna görə lazımdırlar. Bu situasiyada Sergey Lavrovun Bakıda dediyi aşağıdakı fikirlər artıq Ermənistana bu xüsusda verilmiş mühüm cavabdır: "Mən yalnız onu qeyd edə bilərəm ki, hərbi-texniki əməkdaşlıq Moskva və Bakı arasında strateji tərəfdaşlığın mühüm sahələrindən biridir. Biz hərbi-texniki əməkdaşlığı beynəlxalq qanunvericiliyə tam uyğun şəkildə aparırıq. Regionda sabitliyin və balansın tam qorunması ilə". Düzdür, ermənilər Lavrovun sözlərini diplomatik jest kimi qəbul edə bilərdilər, əgər bunun ardınca Azərbaycanın xarici işləri naziri Elmar Məmmədyarovun "Kommersant" qəzetinə verdiyi müsahibə olmasaydı. Müsahibədə bildirilirdi ki, tezliklə Azərbaycan və Rusiya arasında yeni silah müqaviləsi bağlanacaq.

Xatırladaq ki, 2005-ci ildə bağlanmış 5 milyard dollarlıq müqavilə üzrə Moskva Bakıya artıq tanklar, zirehli maşınlar, radioelektron mübarizə vasitələri, özüyeriyən artilleriya qurğuları, raket-yaylım atəşi sistemləri və digər növ silahlar göndərib. Yeni müqavilənin bağlanacağı barədə anons isə Ermənistanda xoşagəlməz sürpriz kimi qəbul edilir. Bu fonda erməni mediası yazır ki, Azərbaycan Rusiya ilə təkcə silah almaqla əməkdaşlıq etmir. Eyni zamanda, Azərbaycan hərbçiləri Rusiyanın hərbi ali məktəblərində vacib hərbi ixtisaslar üzrə təhsil alırlar. Azərbaycanın hərbi arsenalındakı silahların 80 faizi Rusiya istehsalıdır. Bu, Azərbaycan üçün çox əlverişlidir. Digər tərəfdən, Rusiyadan alınan silahların dünya bazarındakı analoqları çox bahadır. Buna görə də Rusiya silahı Azərbaycanı həmişə maraqlandırıb və bu maraq azalmır. Kreml isə nəzərə alır ki, bütün sahələrdə olduğu kimi, silah-sursat alqı-satqısında da Azərbaycan əlverişli tərəfdaşdır. Çünki bu iş üçün müvafiq büdcəsi var və sabit inkişaf edir. Ölkənin ödəmə qabiliyyəti yüksəkdir. Buna görə də ölkəmizə silah satmaqda bütün dövlətlər o cümlədən maraqlıdır. Ermənistanın "Beynəlxalq İnsan İnkişafı Mərkəzi"nin sədri, politoloq Tevan Poqosyanın sözlərinə görə, silah məsələsində Bakının addımları və Rusiya ilə yeni saziş imzalamağa hazırlaşması onun diplomatiyasının arxasında həm də güc durduğunun göstəricisidir. O bu vəziyyətdə, nəticə olmasa, hərbi variantın işə düşəcəyinin qaçılmaz olduğunu bildirir: "ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiyanın xarici işlər naziri Miroslav Layçak da bu günlərdə bildirdi ki, Dağlıq Qarabağda real eskalasiya təhlükəsi var. Əslində, ATƏT-in fəaliyyətdə olan sədri hansısa yeni bir şeyi bəyan etməyib, eskalasiya təhlükəsi hər zaman olub və Ermənistan da bunu bilməmiş deyil. Biz bu təhlükəni başa düşürük, başqasının deməsi məcburi deyil. Bizim müharibə bitməyib və bu eskalasiya təhlükəsi hər an var. Amma indi vəziyyət ötən əsrin sonlarında olduğundan fərqlidir. Azərbaycan kifayət qədər güclənib və Rusiyadan yeni 1 milyard dollar dəyərində silah almaq niyyətini göstərməklə, həm də ordusunu daha güclü hala gətirəcəyini göstərir. Bax bu mənada biz yeni savaşı təhdid olaraq görə bilərik". Məhz belə bir vaxtda Ermənistanın "İrates" qəzeti də olduqca maraqlı bir məlumat yayıb. Burada qeyd olunur ki, Rusiya artıq Qarabağ məsələsində ciddi tələskənlik nümayiş etdirir. Xəbərdə xarici işlər nazirlərinin son görüşünə də məhz bu kontekstdən yanaşılması gərəkdiyi vurğulanıb:"Serj Sarkisyana qarşı cinayət işi də bununla bağlıdır. Bununla hakimiyyətin yeni elementlərlə müqəddəsləşdirilməsi təmin edilir. Yeri gəlmişkən, Serj Sarkisyan özünün dar çevrəsində artıq deyib ki, Nikolun ona, yerdə qalanlara, hətta Ermənistana etdikləri onu Paşinyanın Qarabağ məsələsində fəaliyyətindən daha az narahat edir. Üçüncü prezidentin bununla məhz nəyi nəzərdə tutduğu qeyd olunmur, amma belə bir fikir mövcuddur ki, çox danışmayan eks-prezident heç bir ciddi əsas olmadan belə bir şey deməzdi". Qəzet iddia edir ki, Moskva İrəvana Qarabağ təzyiqlərini gücləndirir və bu da Azərbaycanın uğurlu diplomatik fəaliyyətinin nəticəsidir. Elə rusiyalı politoloq Stanislav Tarasov da məsələyə bu rakursdan yanaşır. Tarasov bildirib ki, Moskva getdikcə daha aydın mövqe nümayiş etdirir və Azərbaycanın yanında yer alır: "Biz hesablayırdıq ki, Serj Sarkisyandan fərqli olaraq, Ermənistanın inqilabçı hakimiyyəti Qarabağ məsələsində daha açıq olacaq və danışıqların detallarını açacaqlar. Bu baş vermədi.

**Yalnız abstrakt və ziddiyyətli bəyanatlar səsləndirilir. Azərbaycan çox danışmır, amma əvvəlki mövqeyindən də geri çəkilmir, Rusiyadan isə getdikcə daha çox dəstək alır. Bu isə Qarabağ məsələsində yenilikləri istsina etmir. Bu yeniliklər olmasa, gələn il savaşın başlaması tamamilə realdır".**

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Sosial şəbəkə "qəhrəmanları" Nəsiminin yubileyinə 650 min ağac əkinini də qaralamağa başlayıblar...

## *Aydın Xan Əbilov: "Azərbaycan sosial şəbəkə seqmenti öz qeyri-ciddiliyi ilə get-gedə məni heyrətləndirməyə başlayıb"*



*"Nəsimi obrazının ağacəkmə kampaniyasında iştirakını tənqid edən, lağlağıya çevirən insanların heç biri nə bir ağac əkdi, nə də bu aksiyaya dəstək verdi"*

**Prezident İlham Əliyevin Sərəncamı ilə 2019-cu il "Nəsimi ili" elan edildikdən sonra ölkəmizdə və beynəlxalq aləmdə Nəsimi irsinin təbliği istiqamətində bir sıra tədbirlər keçirilib. "Nəsmi ili" çərçivəsində müxtəlif tədbirlərin keçirilməsində Heydər Əliyev Fondu xüsusi aktivlik göstərir.**

Son günlər "Nəsimi ili" çərçivəsində respublikamızın ayrı-ayrı yerlərində ağacəkmə kampaniyasına başlanıb. Ölkə boyu 650 min ağac əkilməsi nəzərdə tutulub və ilin sonuna qədər bu proses başa çatdırılacaq.

Ağacəkmə kampaniyasında bir sıra yeniliklər yaşandı. Onlardan biri də Nəsimi obrazının ağacəkmə kampaniyasında görünməsi oldu. Nəsimi dövrünün mənzərəsini, geyim və davranış tərzini ifadə edən aktyorlar ictimaiyyət nümayəndələri ilə birgə ağac əkdilər. Nəsiminin 650 illiyi münasibətilə Nəsimi obrazının xalqın içində peyda olması və camaatla birgə ağac əkməsi sosial şəbəkələrdə birmənalı qarşılanmayıb. Nəsimi obrazının ağacəkmə kampaniyasında iştirakını lağlağı obyektinə çevirənlər hesab edirlər ki, bu düzgün deyil. Nəsiminin yubileyi çərçivəsində keçirilən ağacəkmə aksiyasında Nəsimi obrazının görünməsini, onun ağac əkməsini normal saymayanlarla yanaşı, bunu təqdir edənlər də çoxdur. Onlar hesab edirlər ki, Nəsimi obrazının ağacəkmə kampaniyasında və digər tədbirlərdə görünməsi tam normaldır. Bunu müsbət sayan sosial şəbəkə istifadəçilərinin fikrincə, Nəsiminin ictimaiyyətlə birgə ağac əkməsi, əksinə, onun cəmiyyətdə müsbət istiqamətdə təbliğ edilməsinə imkan verir. İnsanlar o obrazın timsalında gözləri önündə Nəsimini canlandırırlar. Bunun tarixi, mədəni irsimizə, böyük şəxsiyyətlərimizə böyük sayğı olduğunu yazan sosial şəbəkə istifadəçilərinin qənaətinə görə, Nəsimi obrazının ağacəkmə kampaniyasında görünməsini tənqid etmək, lağlağıya çevirmək düzgün deyil.

Yeni Yazarlar və Sənətçilər Qurumunun rəhbəri, yazıçı-kulturoloq Aydın Xan Əbilov da hesab edir ki, bəzi sosial şəbəkə istifadəçilərinin Nəsimi obrazına bu cür yanaşması müsbət hal deyil: "Azərbaycan sosial şəbəkə seqmenti öz qeyri-ciddiliyi ilə get-gedə məni heyrətləndirməyə başlayıb. Azərbaycanda baş verən ictimai-siyasi, hətta texnogenik, təbiət hadisələrini belə lağ obyektinə çevirən sosial şəbəkə istifadəçilərinə baxanda onların intellektual səviyyəsinin çox aşağı olduğunu görməmək olmur. Eyni zamanda, bu insanların dünyagörüşünün məhdud olduğunu müşahidə edirik. Nəsiminin 650 illik yubileyi ilə bağlı ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyeva çox möhtəşəm bir ekoloji layihənin həyata keçirilməsi təşəbbüsünü irəli sürdü və bu layihəni bizim hamımız dəstəkləyirik. O cümlədən, mən özüm də Lənkəranda, öz doğma kəndimdə 60-dan çox ağacın əkilməsində iştirak etmişəm. Bu, həyata keçirilən ekolayihənin bir hissəsidir. Bilirsiniz ki, Azərbaycan yaşıllaşdırma və meşəsalma sahəsində kasad ölkələrdən biri sayılırdı. Amma son vaxtlar Prezident İlham Əliyevin, ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın, İDEA təşkilatının rəhbəri Leyla Əliyevanın, eləcə də hökumət və dövlət qurumlarının təşəbbüsü ilə Azərbaycanda yaşıllaşdırma, ekoloji tarazlığın bərpa edilməsi ilə bağlı çox mühüm layihələr həyata keçirilir. Bütün dünyada müxtəlif bayramlar, mərasimlər keçirilir. Hindistanda keçirilən rənglər bayramında insanlar özlərini müxtəlif rənglərə boyayıb meymun halına salırsa, Cadugərlər mərasimində insanlar müxtəlif qorxulu maskalar taxıb vahimə yaradırlarsa və onu Azərbaycandakı bəzi sosial şəbəkə istifadəçiləri də dəstəkləyirlərsə, nə üçün onlar "Nəsimi ili" çərçivəsində həyata keçirilən bu nəcib təşəbbüsü lağlağı obyektinə çevirirlər? Bu, həmin insanların düşüncəsinin dar olmasından xəbər verir. Nəsimi obrazının cəmiyyətdə bu şəkildə görünməsi, onun ağacəkmə kampaniyası iştirakçılarının arasında görünməsi çox müsbət bir haldır. Nəsimi personajı bu aksiyada iştirak etməklə insanları daha da həvəsləndirir və bu ekoloji layihəyə daha da kreativlik qatır. Bu olduqca gözəl təşəbbüsdür. Necə ola bilir ki, müxtəlif tədbirlərdə Nəsimi obrazını təqdim edən şəxs səhnəyə çıxıb şeir deyə bilər, amma Azərbaycanın hər yerində bir günün ərzində 650 min ağac əkilmə kampaniyasında Nəsimi obrazının meydana çıxması kimlərisə narahat edir və bu obraza qarşı sosial şəbəkələrdə xoşagəlməz kampaniya aparırlar".

A.X.Əbilov hesab edir ki, ölkədə müxtəlif sosial, ekoloji layihələrin həyata keçirilməsi zamanı bizə doğma olan obrazlardan, personajlardan istifadə edilməlidir. O hesab edir ki, tarixi şəxsiyyətlərin obrazını yaradan aktyorların hadisə zamanı insanların arasında olması o tədbirlərin daha yüksək səviyyədə keçirilməsinə imkan verir. "Amma bəzi sosial şəbəkə istifadəçiləri belə şeylərin mənasına varmadan hər şeyi lağlağıya çevirirlər. Nəsimi obrazının ağacəkmə kampaniyasında iştirakını tənqid edən, lağlağıya çevirən insanların heç biri nə bir ağac əkdi, nə də bu aksiyaya dəstək verdi, onlar küçələrini, həyətlərini zibilləyən, küçələrdə, yollarda ağacları kəsən, ekoloji tarazlığı pozan şəxslərdir. Nəsimi, Nizami, Babək, Füzuli, Zərdüş Peyğəmbər, Mirzə Fətəli Axundov, Məhəmməd Əmin Rəsulzadə, Heydər Əliyev, Həzi Aslanov kimi şəxsiyyətlər həmişə bizimlədir. Bizim tarixi şəxsiyyətlərimiz, qəhrəmanlarımız obraz şəklində hər zaman yanımızda görünməlidirlər ki, biz bu xalqın ruhunu, tarixini yaşadaq" - deyə A.X.Əbilov vurğuladı.

***İradə SARIYEVA***

**Rusiyanın İqtisadi inkişaf naziri Maksim Oreşkin Prezident İlham Əliyevlə görüşü zamanı bildirib ki, Rusiyanın Avrasiya İqtisadi İttifaqı ilə ticari-iqtisadi münasibətlərində mənfi dinamika fonunda, Azərbaycanla ticarət dövriyyəsi 30 faiz artıb: "Həqiqətən, cari rəqəmlərə nəzər salsaq, əmtəə dövriyyəsini və dinamikanı əks istiqamətdə müqayisə etsək, məsələn, bu il Avrasiya İqtisadi İttifaqı ilə bizim münasibətlərimizdə dinamika mənfidir, əmtəə dövriyyəsi bir qədər azalır.**

# Rusiyanın Avrasiya məkanında ticarətin azalması fonunda Azərbaycanla ticarət dövriyyəsi artır




## ***Ruslan Atakişiyev:*** *”Bütün bunlar onu göstərir ki, Azərbaycan getdikcə Rusiyanın əsas ticarət tərəfdaşlarından birinə çevrilməkdədir”*

Buna görə, həqiqətən, Azərbaycanla təqribən 30 faiz artım var. Bu, ümumiyyətlə, hər hansı ölkə ilə müqayisədə həqiqətən ən yüksək göstəricilərdən biridir. Doğrudan da baza bəlkə də bu qədər yüksək olmayıb və Hökumətlərarası Komissiya çərçivəsində mənim həmkarlarımla birlikdə həyata keçirdiyimiz ilk tədbirlər, sədlərin aradan qaldırılması, bazarlar açılması - bütün bunlar ciddi irəliləyişə nail olmağa və bu cür yaxşı nəticələr göstərməyə imkan verib".

Rusiyalı nazirin fikrincə, bu sahədə daha irəli getmək və elə etmək lazımdır ki, bunlar birdəfəlik nəticə deyil, daimi hadisə olsun: "Buna görə biz burada, əlbəttə, əməkdaşlığın dərinləşdirilməsi üzərində işləyəcəyik. Çünki bunlar, sadəcə, sədlər deyil, bunlar müştərək layihələr məsələləri və əlavə dəyər zənciridir".

Görünən odur ki, Azərbaycanın Rusiya üçün iqtisadi önəmi daha da artmaqdadır. Bunun nəticəsidir ki, Rusiyanın AİI ölkələri ilə ticari-iqtisadi münasibətlərində mənfi dinamika müşahidə edildiyi halda, Azərbaycanla ticarət əlaqələrinin həcmi artır.

Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin direktoru Ruslan Atakişiyevin sözlərinə görə, bu, Azərbaycanın Rusiya üçün vacib iqtisadi tərəfdaş olmasından irəli gəlir: "Azərbaycanın 3 əsas ticarət tərəfdaşlarından biri də Rusiyadır. Azərbaycandan Rusiyaya qeyri-neft məhsulları ixrac olunur. Əsasən də kənd təsərrüfatı məhsullarının ixracında Rusiya vacib partnyorlardan biridir. O cümlədən, biz qida və digər sektorlarda bir sıra məhsulları Rusiyadan idxal edirik. Ümumiyyətlə, son dövrlərdə Azərbaycan şirkətləri Rusiyada investisiyalar yatırırlar. "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə bağlı görülən işlər də iki ölkə arasında ticarət dövriyyəsinin artmasına öz müsbət təsirini göstərir. Məsələ ondadır ki, tərəflər arasında mal dövriyyəsi həcminin artması müşahidə edilir. Bütün bunlar, istər-istəməz, iki ölkə arasında olan iqtisadi əlaqələrin dərinləşməsinə gətirib çıxarır.

*”Tərəflər arasında mal dövriyyəsi həcminin artması müşahidə edilir”*

Yəni bütün bunlar bir-birilə sıx bağlıdır. Rusiyanın Azərbaycanla iqtisadi əlaqələrinin genişlənməsi fonunda, AİI ölkələri ilə əlaqələrdə mənfi tendensiyaların özünü göstərməsi maraqlı məqamdır. **Bütün bunlar onu göstərir ki, Azərbaycan getdikcə Rusiyanın əsas ticarət tərəfdaşlarından birinə çevrilməkdədir. Hesab edirəm ki, bu amil böyük əhəmiyyət kəsb edir".**

***Vidadi ORDAHALLI***

**Depozit fiziki və hüquqi şəxslərin bankda saxlanan pul vəsaitləridir. Bu vəsaitlər əmanətçiyə bankla imzalanmış müqavilədə əks olunan uçot faizləri formasında müəyyən gəlir qazandırır. Depozit həm banka, həm də əmanətçiyə eyni anda fayda verir: əmanətçi müəyyən faizlər əldə edir, bankın isə xeyri onda olur ki, o, əmanətçinin pulunu dövriyyəyə buraxa bilir.**

# Bank depozitlərinin ümumi mənzərəsində maraqlı artım başlayıb - bütün istiqamətlər üzrə...




## ***Fuad İbrahimli:*** *”Manatla vəsaitlərin saxlanmasına meyl artıb”*

Açıqlanan statistik rəqəmlərə əsasən, 2019-cu ilin oktyabr ayında Azərbaycanda əmanətlərin ümumi həcmi 23,413 milyard manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,4 faiz çoxdur.

Azərbaycan Mərkəzi Bankının hesabatında deyilir ki, qeyri-maliyyə təşkilatlarının əmanətlərinin həcmi 2018-ci ilin oktyabr ayı ilə müqayisədə (11,8 milyard manat) 4 faiz artaraq 12,898 milyard manat təşkil edib. Bu ilin sentyabr ayında hüquqi şəxslərin əmanətlərinin ümumi həcmi 14,602 milyard manata çatıb.

Fiziki şəxslərin əmanətləri isə beş faiz artaraq 8,81 milyard manat təşkil edib. 2019-cu ilin oktyabr ayının nəticələrinə görə, xarici valyutadakı əmanətlər ötən ilin müvafiq dövrünə nisbətən 1,3 faiz artaraq 14,84 milyard manat təşkil edib. Milli valyutadakı əmanətlərin ciddi şəkildə artması müşahidə olunur ki, bu da ötən ilin oktyabr ayına nisbətən 16,6 faiz artaraq 8,576 milyard manata çatıb.

İqtisadçı-ekspert Fuad İbrahimli bildirdi ki, 2018-ci illə müqayisədə depozitlərin payının artımına səbəb bankların xarici öhdəliklərdən getdikcə imtinası və xarici maliyyə qurumlarından kredit almaq imkanlarının məhdudlaşmasıdır: "Həmçinin, banklarda manat depozitlərinin artması son iki ildə milli valyutanın məzənnəsinin sabitliyi və manat əmanətlərinin illik gəlirliyinin dollar əmanətlərinə nisbətən yüksək olmasıdır. Son vaxtlar manatla əmanətlərin saxlanmasına daha çox üstünlük verilir: "Bu da ondan ibarətdir ki, artıq xeyli müddətdir manatın məzənnəsi stabilləşib. Manatla vəsaitlərin saxlanmasına meyl artıb. Bu da banklarda aparılan islahatlar və qanunvericiliyə edilən dəyişikliklərlə bağlıdır".

*”2018-ci illə müqayisədə depozitlərin payının artımına səbəb bankların xarici öhdəliklərdən getdikcə imtinası və...”*

Həmsöhbətimiz onu da vurğuladı ki, manatın məzənnəsinin uzun müddət sabit qalması dollar əmanətlərinin manat əmanətlərinə çevrilməsini sürətləndirdi: "Həmçinin, nəzərə alaq ki, manatla depozit faizləri kifayət qədər yüksəkdir. Dollarla olan əmanətlərdən isə ən yaxşı halda 2 faiz gəlir əldə etmək mümkündür. Bu da manat depozitlərinə cəlbedicilik yaratdı. İnsanlar əllərində olan manatı depozitə yatırdılar.

Eyni zamanda, bank sisteminə də müəyyən güvən yarandı. Bununla da dollarla olan kreditlərin bir hissəsi manata çevrildi. Bütün bunlar manat depozitlərinin həcmində yüksəlişə səbəb oldu.

Manat sabit qalacaqsa, proses bu il də davam edəcək. Manatın məzənnəsində isə, ən azından, yaxın müddət üçün bir dəyişiklik gözlənilmir. Odur ki, manatla olan depozitlərin həcminin artması bu il də gözlənir. Manatla depozitlərdə faizlər yüksək qaldıqca, cəlbedicilik də artacaq".

***Günel CƏLİLOVA***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az



# Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi

**Bildiyimiz kimi, Azərbaycan xalqı, dünyanın müxtəlif ölkələrində məskunlaşmış soydaşlarımız hər il dekabrın 31-də Dünya Azərbaycanlılarının Həmrəylik Gününü təntənəli qeyd edir. Çox qədim tarixə malik xalqımız bu əlamətdar bayramı uzun illərdən bəri davam edən ənənələrinə, mədəniyyətinə, tarixi köklərinə xas olan duyğularla keçirir.**

Bu ənənəvi Dünya Azərbaycanlılarının Həmrəylik Günü bayramı ildən-ilə daha geniş vüsət alır, ürəklərdə vətən eşqi, milli-mənəvi birlik hissləri bəsləyən hər bir həmvətənimiz tərəfindən güclü dəstək alır. Birinci dəfə həmrəylik və birlik eşqi ilə dillərə düşən və rəsmiləşdirilən bu bayram ürəklərdə uzun illərdən bəri qorunan azadlıq və birlik hisslərinin təzahürüdür.

Ənənəvi bayram Naxçıvan Muxtar Respublikası Ali Məclisinin o vaxtkı sədri Heydər Əliyevin uzaqgörənliyini, xalqı öz ətrafında birləşdirmək məharətini bir daha sübuta yetirir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il dekabrın 16-da "Dünya Azərbaycanlarının həmrəylik və birlik günü haqqında" qərarı yenicə müstəqilliyini elan etmiş Azərbaycanın yeni tarixində ən mühüm sənədlərdən biridir. Tarixi sənəddə deyilir ki, çoxəsrlik zəngin tarixə malik olan Azərbaycan öz inkişafının müxtəlif mərhələlərində dəfələrlə xarici istilaya məruz qalmış, onun torpaqları zəbt edilmiş və parçalanmış, dövlət müstəqilliyi və suverenliyi əlindən alınıb. Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) müqavilələri ilə Azərbaycan xalqı və onun tarixi torpaqları parçalanaraq Rusiya ilə İran dövlətləri arasında bölünüb.

Lakin dəfələrlə tarixi ədalətsizliyə məruz qalsa da, milli dövlət institutları ləğv edilsə də, Azərbaycan xalqı müstəqillik yolunda öz mübarizəsini dayandırmamışdır. İyirminci yüzilliyin əvvəllərində yaranmış mürəkkəb tarixi şəraitdə müstəqilliyini bərpa etmək üçün xalqımız mühüm addımlar atıb. İmperiya zülmündən azad olan Quzey Azərbaycan 1918-ci il mayın 28-də dövlət müstəqilliyi qazanaraq öz tarixi ərazisində milli dövlətini - Azərbaycan Demokratik Cümhuriyyətini yaratdı. Çox keçmədən Azərbaycanın dövlət müstəqilliyi və ərazi bütövlüyü yeni təcavüzə - bolşevik Rusiyasının silahlı müdaxiləsinə məruz qaldı. Beləliklə, qanuni hakimiyyət zorakılıqla devrildi və Azərbaycan xalqının çox böyük qurbanlar bahasına qazandığı müstəqilliyə son qoyuldu. Demokratik qüvvələrin əksəriyyəti repressiyaya məruz qaldı, xalqın bir qismi isə mühacirət etməyə məcbur oldu.

Sovet imperiyası tərkibinə qatıldığı 70 il ərzində Azərbaycana qarşı müstəmləkəçilik siyasəti yeridilmiş, Azərbaycan xalqı təqiblərə və kütləvi cəza tədbirlərinə məruz qalmışdır. İmperiya siyasəti dünya azərbaycanlılarını bir-birindən təcrid etmək məqsədilə pantürkizm məfhumunu Şərq aləmində təhlükəli bir ideya kimi təqdim edərək, dünyada və Sovetlər İttifaqında yaşayan türkdilli xalqlar arasında əlaqələrin məhdudlaşmasına, kəsilməsinə cəhd göstərmişdi. Bu siyasətin təzahürü kimi sərhəd çəpərləri Azərbaycan xalqını parçalamışdır. Bütün bunlara baxmayaraq, azərbaycanlılar milli dövlət, milli və mənəvi bütövlük, müstəqillik uğrunda mübarizəni davam etdirmişlər.

Ötən əsrin 90-cı illərindən başlayaraq, xalqın milli özünüdərki güclənmiş, ictimai həyatın demokratikləşməsi istiqamətində xalq hərəkatı genişlənmişdir. Naxçıvan Muxtar Respublikasında demokratik qüvvələr milli birlik və müstəqillik ideyası ətrafında birləşərək siyasi və ictimai birliklər yaratmışlar. 1989-cu ilin dekabrında Güney və Quzey Azərbaycan arasında humanitar, mədəni, iqtisadi və qohumluq əlaqələrini bərpa etmək məqsədilə sərhəd çəpərlərinin götürülməsi və mühəndis-texniki qurğuların sökülməsi haqqında qərar qəbul edildi.

Sovet İttifaqı Kommunist Partiyasının, Azərbaycan Kommunist Partiyasının mərkəzi komitələri, partiyanın yerli orqanları, SSRİ Sərhəd Qoşunlarının rəhbərliyi buna mane olmaq üçün bütün siyasi və hərbi təsir vasitələrinə əl atdılar. Lakin buna baxmayaraq, Naxçıvanda "Sərhəd hərəkatı" adlı bir sıra siyasi aksiyalar həyata keçirildi. Genişlənən demokratik hərəkatın nəticəsində SSRİ-nin dövlət sərhədi boyunca çəkilən sərhəd çəpərləri elliklə söküldü. İlk dəfə olaraq Arazın o tayında, bu tayında olan qohumların, həmvətənlərin ünsiyyət imkanları yarandı, sadələşdirilmiş keçid məntəqələri təşkil edildi. 1989-cu il dekabrın 31-i Dünya azərbaycanlılarının həmrəylik bayramına çevrildi, 1990-cı ildə isə həmin günün ildönümü Muxtar Respublikada geniş qeyd edildi.

Doğulduğum kənd Araz çayının qırağında olduğu üçün, uşaqlıq dövründə tikanlı məftillərin niyə çəkildiyi, rus sərhədçilərinin bizi Araz çayına hansı səbəbdən buraxmadıqları ilə çox maraqlanırdım. Qoca nənəm həmişə deyərdi ki, Arazın o tayında yaşayanlar da bizim millətdir, sadəcə, onlarla bizi ruslar ayırıb. Onun savadı yox idi, ancaq sonradan gördüm ki, bu millətin taleyinə düşən ayrılıq, ikiyə bölünməyin səbəbini nənəm tam izah edə bilməsə də, bir sadə cümləsi ilə millətin faciəsinə səbəb olan tarixi hadisənin əsl səbəbkarlarına düz işarə edib. Nənəmin qəlbində olan Cənub həsrətində milli ayrılıqdan daha çox doğma insan itkisinin üzüntüsü yaşayırdı. O həmişə deyirdi ki, "Qaçaquş" vaxtı doğma bacım o tayda qaldı. Yaşlı nəslin nümayəndələri bilir ki, keçən əsrin əvvəlində ermənilərin Naxçıvana etdiyi basqın vaxtı əhalinin, xüsusilə də qadınların bir hissəsi düşməndən qorunmaq üçün Arazı keçərək Cənuba sığınıb. Məhz "Qaçaquş" adı da həmin vaxtdan qalıb və nənəm o hadisələr zamanı bir bacısını itirib. Bu həsrəti savadlı insanlar milli faciə kimi, savadsızlar isə doğmalarının itkisi kimi dəyərləndirsə də, mahiyyət etibarilə heç nə dəyişmir. Nəticədə üreyimiz hələ də Cənub həsrəti ilə sızlamaqdadır. Həmin vaxt 13 yaşım vardı. Naxçıvanda Milli Azadlıq Hərəkatının daləğası öz pik həddinə çatdı, hətta gedən proses böyük bir imperiyanın sərhədlərinin sökülməsi ilə nəticələndi. Naxçıvanın sərt qışına baxmayaraq, o taylı-bu taylı əhali bir-birilə danışmaq, görüşmək üçün Arazın qırağına axın edirdi. Öz itkin düşmüş doğmalarını soraqlaşaraq tapanlar, qışın soyuğuna baxmayaraq, özlərini suya ataraq bir-birilə görüşmək istəyirdilər. Hətta həmin hadisələr zamanı istər bizim vətəndaşlarımızdan, istərsə də cənublu qardaşlarımızdan bir neçə nəfər suda boğularaq dünyasını dəyişdi. Bir az əvvəl haqqında söhbət etdiyim nənəm də soraqlaşıb öz bacısı haqda məlumat əldə etdi, ancaq təəssüflər olsun ki, o, dünyasını dəyişmişdi. İtkin düşən və sonradan rəhmətə gedən bacısının övladları ilə görüşəndə nənəmin hansı hisslər keçirdiyi hələ də yadımdan çıxmır. Məhz onda mən millətimizin hansı iztirabı çəkdiyini anlamağa başladım.

Mən yaxın tariximizdə Naxçıvanda cərəyan edən hadisələri təsadüfən yada salmadım. Bəli, milli birliyimizə və həmrəyliyimizə gedən yol, bu istiqamətdə aparılan dövlət siyasətinin əsası məhz Naxçıvanda qoyulduğu üçün bunu etdim. Danılmaz faktdır ki, istər sərhədlərin sökülməsi, istərsə də 31 dekabrın Azərbaycan tarixinə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi daxil olması prosesi ilə bağlı siyasi qərar da məhz dahi siyasətçi Heydər Əliyevin rəhbərlik etdiyi Naxçıvan Ali Məclisi tərəfindən verildi. Dünya azərbaycanlılarının təşkilatlanmağa başladığı ilk illərdən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı erməni və ermənipərəst qüvvələrin apardığı qeyri-obyektiv təbliğatın ifşası, Azərbaycan həqiqətləri ilə bağlı doğru informasiyanın yayılması Azərbaycan diaspor qurumlarının qarşısında dayanan əsas vəzifələrdən biri kimi qəbul edilib.

Prezident İlham Əliyev bütün tədbirlərdə Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzündən, Dağlıq Qarabağ münaqişəsi ətrafında ermənipərəst qüvvələrin apardığı təbliğatın mahiyyətindən geniş söhbət açır. Azərbaycan Respublikasına qarşı hər hansı formada təcavüzün qarşısının alınması, lobbiçilik fəaliyyətinin genişləndirilməsi, milli maraqların müdafiə olunması hər bir Azərbaycan icmasının və xaricdə yaşayan hər bir azərbaycanlının müqəddəs vəzifəsi kimi dəyərləndirilir.

Dünya birliyinə sürətlə inteqrasiya edən Azərbaycanın maraqlarının qorunmasında, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə lazımi şəkildə çatdırılmasında xaricdəki diaspor təşkilatlarımızın qarşısında bir sıra mühüm vəzifələr durur. İlk növbədə, dünyada yaşayan azərbaycanlıların öz tarixi Vətənləri ilə əlaqələrinin daha da möhkəmlənməsinə ehtiyac var. Vətənləri ilə bağlı olan soydaşlarımız özlərini daha da rahat hiss edəcəklər. Belə olan halda, Azərbaycan dövləti onlara daha böyük dəstək verə biləcək. Dövlətimizin başçısı İlham Əliyevin bu xüsusda həmvətənlərimizə belə bir müraciəti var: "Əlbəttə, biz çox istəyirik ki, xaricdə yaşayan hər bir azərbaycanlı heç olmasa ildə bir dəfə Azərbaycana gəlsin. Birincisi, ona görə ki, Vətənlə əlaqələr qırılmasın. İkincisi, ona görə ki, Azərbaycanın müxtəlif yerlərində çox gözəl şərait yaradılıb. Hazırda Azərbaycana gələn turistlərin sayı getdikcə artır. Əlbəttə ki, biz onların arasında dünya azərbaycanlılarını da görmək istəyirik. Əgər xaricdə yaşayan hər bir azərbaycanlı ailəsi, hesab edirəm ki, ildə ən azı bir dəfə Azərbaycana gəlsə, bu çox yaxşı olar."

Yeni tarixi şəraitdə diaspor təşkilatlarımızın qarşısında duran vacib vəzifə Azərbaycan reallıqlarını, ilk növbədə, Qarabağ münaqişəsi barədə həqiqətləri dünya ictimaiyyətinə daha dolğun şəkildə çatdırmaqdan ibarətdir.

Biz informasiya dövründə yaşayırıq və informasiyanın əhəmiyyəti getdikcə artır. Biz buna hazır olmalıyıq. Lakin etiraf etmək lazımdır ki, bizim zəif yerlərimizdən birincisi xarici ölkələrin dövlət, hökumət, qanunvericilik orqanlarında təmsilçiliyimizin aşağı səviyyədə olmasıdırsa, ikincisi isə xarici media qurumları ilə Azərbaycan diaspor təşkilatlarının öz işini lazımi səviyyədə qura bilməməsidir. Bizim xarici mediaya çıxışımız çox məhduddur. Bu sahədə əsaslı dönüş yaratmaq üçün təbliğat işimizi daha da təkmilləşdirməliyik.

*Məhəmmədəli QƏRİBLİ*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür.**

# İri ticarət mərkəzlərində yanğın təhlükəsizliyi qaydalarına əməl edilmədiyinə daha bir fakt - "EuroHome"...

**Məlum olduğu kimi, dekabrın 10-da səhər saatlarında Bakı şəhərinin Binəqədi rayonunda yerləşən "EuroHome" tikinti materialları bazarı ərazisində yanğın baş verib. 5 hektarlıq ərazini əhatə edən bazar, demək olar ki, tam yanıb. Dövlət Yanğından Mühafizə Xidmətinin yanğınsöndürmə qüvvələri və Xüsusi Risqli Xilasetmə Xidmətinin müvafiq qüvvələri hadisə yerinə cəlb olunublar.**

Yanğının söndürülməsi istiqamətində ciddi addımlar atılıb. Sahibkarların yanğınla bağlı verdiyi məlumatlardan məlum olur ki, bazarda yanğın təhlükəsizliyi ilə bağlı vəziyyət heç də ürəkaçan olmayıb.

Yanğında ziyan görən sahibkarlardan biri deyib ki, 150 minlik ziyana düşüb. Onun sözlərinə görə, yanğın ilk olaraq kafel-metlax satılan dükanda başlayıb: "Səhər saat 9 radələrində bildik ki, kafel-metlax satılan dükanlardan birində yanğın var. Tez Fövqəladə Hallar Nazirliyinə zəng etdik. Burada 100-dən çox mağazaya ziyan dəyib. Mənim 150 min manatlıq malım yanıb-kül olub. Bazarın yarısının sığortası yoxdur, eləcə də mən də sığortalanmadım. Nisyə dəftərim vardı. 50-60 minə yaxın alacaqlarım vardı, o dəftər də yandı. Bilmirəm kimdən nə alacam, nə qədər alacam. Heç kim bizə heç nə demir".

Adıçəkilən bazarda mağazası olan sahibkar Seymur Orucov isə deyib ki, tikinti materialları bazarında heç bir təhlükəsizlik siqnalı olmayıb.

İnternet üzərindən apardığımız araşdırma nəticəsində məlum olub ki, sözügedən bazarın sahibi Azay Möhnətov adlı iş adamıdır. Azərbaycanlı iş adamı, həmçinin, AF Holdinq Şirkətlər Qrupunun prezidentidir. O, həmçinin, "Uğur-97" şirkətinin prezidenti, Azərbaycan Memarlar Birliyinin üzvüdür. "AF Hotel Aqua Park"ın sahibidir.

Baş verən yanğın hadisəsi və orada mağazası olan sahibkarların verdikləri açıqlamalardan görünür ki, iri ticarət obyektlərinin yanğından təhlükəsizlik problemi hələ də öz həllini tapmayıb. Biz analoji yanğın hadisələrinin Sumqayıtdakı "Karvan" Ticarət Mərkəzində, "Binə" və "Sədərək" bazarlarında və ən sonda 8 km ərazisindəki "Diqlas" ticarət mərkəzində baş verməsinin şahidi olmuşuq. Görünür, həmin hadisələr də iri ticarət mərkəzlərinə nəzarət edən sahibkarlar üçün bir siqnal olmayıb. Bənzər hadisələrin qarşısını almaq üçün hansı addımların atılması zəruridir?

Sığorta məsələləri üzrə ekspert Elşən Əliyev qəzetimizə açıqlamasında bildirdi ki, bazardakı yanğını yaxından seyr edə bilib: "Bizim yolumuz oradan keçir. Səhər-səhər təsadüfən həmin mənzərəni yaxından izləyə bildim. Çox dəhşətli bir yanğın idi. İnsafən, demək lazımdır ki, əlaqədar qurumlar yanğının aradan qaldırılması istiqamətində əllərindən gələni edirdilər. Yanğının söndürülməsinə hətta helikopterlər, təyyarə də cəlb edilmişdi. Təəssüf ki, bazara böyük ziyan dəydi. Orada çalışan sahibkarlarla danışıqdan sonra yenə ənənəvi mənzərənin şahidi oluruq. Deyirlər ki, sığorta yox, bazarda yanğınla bağlı hər hansı bir təhlükəsizlik-xəbərdarlıq siqnaları quraşdırılmayıb. Biz analoji hallarla bir neçə dəfə rastlaşmışıq. Axı həmin bazarın xüsusiyyəti nəzərə alınmalı idi. Ora yanğın üçün çox risqlidir. Əsasən tez alışa bilən tikinti materialları satılır. Bir müddət əvvəl "Diqlas"da baş verən mənzərəni yadınıza salın.

Həmin hadisə sahibkarlara təhlükəsizlik tədbirlərini gücləndirmək, icarədarlara isə mallarını sığortalamaq üçün bir sos siqnalı olmalı idi. Görünür, nəticə çıxarmayıblar. İndi yəqin ki, yaxın günlərdə biz həmin adamların dövlətdən kompensasiya tələb etdiklərinin şahidi olacağıq. Hər halda, əlaqədar qurumların da bu məsələdəki səhlənkarlığı nəzərə alınmalıdır. Sahibkar istəməyə bilər, onu təhlükəsizlik tədbirlərini ən yüksək səviyyədə görməyə qanunların tətbiqilə məcbur etmək lazımdır".

***Elşən Əliyev:*** *"Sahibkar istəməyə bilər, onu təhlükəsizlik tədbirlərini ən yüksək səviyyədə görməyə qanunların tətbiqilə məcbur etmək lazımdır"*



***Məhəmmədəli QƏRİBLİ***

# Yeni dərman zavodu - Azərbaycanda qiymətləri nə gözləyir...

***Vüqar Bayramov:*** *"...pulun xaricə çıxmasının qarşısını alacaq"*



*"Azərbaycana məxsus dərman zavodunun olması həm ölkəyə idxal olunan keyfiyyətsiz dərmanların qarşısını alacaq, həm də bazarda qiymətlər yüksək olmayacaq"*

**Dekabrın 9-da Pirallahı Sənaye Parkının daha bir rezidenti - dərman vasitələrinin istehsalı üzrə ixtisaslaşmış Azərbaycan-Rusiya birgə müəssisəsi "R-Pharm"ın açılışı olub. İnnovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin davamlı inkişafının təmin edilməsi, istehsal sahəsində məşğulluğun artırılması məqsədilə ölkədə sənaye parkları yaradılır.**

Məlumat üçün bildirək ki, 4,6 hektar ərazidə yerləşən zavodun tikintisinə 2018-ci ildə başlanıb. Müəssisə Avropa ölkələrinin aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıq və texnologiyalarla təchiz olunub. İnvestisiya dəyəri 74 milyon ABŞ dolları olan müəssisənin illik istehsal gücü 250 milyon ədəd həb və kapsul təşkil edəcək. Zavod laboratoriya, istehsal və logistika bölmələri də daxil olmaqla, ölkədə ilk əczaçılıq kompleksi olacaq. İstehsal olunan məhsulların daxili bazarla yanaşı, xarici ölkələrə ixracı da nəzərdə tutulur.

Maraqlıdır, yeni açılan dərman zavodu bazarda dərmanların satış qiymətinə necə təsir edəcək?

İqtisadçı-ekspert Vüqar Bayramov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, yerli dərman preparatlarının istehsalına ehtiyac var: "Məlumdur ki, Azərbaycanın dərman tələbi idxal hesabına ödənilir. Bu səbəbdən dərman preparatlarında yerli istehsalın inkişaf etməsinə ehtiyac var. Nəzərə almaq lazımdır ki, dərmanın idxalı ölkədən valyuta çıxışına səbəb olur.

Yerli dərman preparatların istehsal olunması pulun xaricə çıxmasının qarşısını alacaq. Keyfiyyətə yaxından nəzarət etməklə istehsalın həyata keçirilməsi mümkün olacaq. Bu hal bazarda qiymətlərin optimillaşdırılmasına da şərait yaradacaq. Ölkə daxilində dərman zavodunun olması valyutanın xaricə çıxmasının qarşısını alacaq".

**Həmsöhbətimizin sözlərinə görə, Azərbaycana məxsus dərman zavodunun olması həm ölkəyə idxal olunan keyfiyyətsiz dərmanların qarşısını alacaq, həm də bazarda qiymətlər yüksək olmayacaq.**

***Günel CƏLİLOVA***

# Kolbasa və sosiska istehsalı barədə şok iddia - Çindən idxal olunan xərçəng törədicilərini yeyirik...

**Kolbasa və sosislərin ətdən deyil, xərçəng mənbəyi olan Çindən idxal edilən protein tozundan hazırlandığı iddia olunur. Ümumdünya Səhiyyə Təşkilatı kolbasa məhsullarının insan orqanizminə ən azı siqaret qədər zərər vurması və onkoloji xəstəliklər yaratması barədə dəfələrlə ciddi xəbərdarlıq edib.**



## *Eyyub Hüseynov: "Ölkəyə idxal olunan kolbasa və digər ət məhsulları insan sağlamlığı üçün daha təhlükəlidir"*

Belə ki, mütəxəssislər qida sənayesində işlənmiş ət məhsullarının xərçəng yaratma risqini araşdırıb, həftəyə iki və daha artıq sosiska yeyən qadınların süd vəzi xərçənginə tutulma risqinin dəfələrlə artmasını sübut ediblər.

Bildirilir ki, hazırda kolbasa və sosislərin hazırlanmasında tam ət məhsulundan istifadə olunmur. Belə məhsulların əsas hissəsini soya (paxlalı bitki), heyvan dərisi, sümükləri və digər tullantı hissələri, sellüloz təşkil edir. Bu kütləyə onu "ətə" bənzətmək üçün külli miqdarda kimyəvi maddə də əlavə olunur. Kolbasa məhsullarına əlavə olunan nitratlar (natrium nitriti) məhsula xoşagəlimli xarici görünüş verməklə yanaşı, onun saxlanma müddətini artırır.

Ekspertlər bildirirlər ki, son illər kolbasa və sosisləri hazırlamaq üçün heyvan tullantılarından və soyadan hazırlanmış protein tozundan istifadə geniş yayılıb. Bu baxımdan tez-tez kolbasa məhsulları qəbul edən insanın orqanizmində xərçəng hüceyrələrinin əmələ gəlməsi prosesi sürətlənir. Bu barədə Ümumdünya Səhiyyə Təşkilatı da dəfələrlə xəbərdarlıqla çıxış edib. Buna baxmayaraq, bir çox ölkədə insan sağlamlığı üçün çox ziyanlı olan kolbasa və sosis məhsulları kütləvi şəkildə istehsal olunur və Azərbaycan da bu ölkələr arasında yer alır.

İddialara görə, hazırda dünyanın bəzi iri kolbasa istehsalçısı sayılan dövlətlərində kolbasa ətdən deyil, "poroşok"lardan - protein tozundan hazırlanır. Bu praktikadan istifadə edən dövlətlərin başında Rusiya və Çin gəlir. Avropa İttifaqı sərhədləri çərçivəsində bu cür "poroşok"lardan kolbasa hazırlamaq qadağan olunub. Türkiyədə "poroşok"lardan istifadə qadağan olunsa da, bu qadağalara tam riayət olunmur. Qırmızı ətin həddən artıq baha olduğu Türkiyədə istehsal olunan kolbasaların böyük bir qisminin "poroşok"lardan düzəldildiyi iddia olunur.

Azərbaycanda da zaman-zaman kolbasa və digər ət məhsullarının antisanitariya şəraitində istehsal olunması ilə bağlı məlumatlar yayılır. Ölkədə kolbasa, sosis və sardelka istehsalı sahəsindəki durumun daha acınacaqlı olduğunu meydana çıxaran kifayət qədər fakt var. Və demək olar ki, hazırda kolbasa sexləri xərçəng və digər qorxulu xəstəlikləri yayan müəssisələr olaraq çıxış etməkdədirlər. Bunun əksini deyənlər, ən azından, öz istehsal müəssisələrinin ictimaiyyət üçün açıq elan etməlidirlər.

*"Uzunmüddətli saxlanma, isti və soyuq şəraitdə xarab olmaması üçün kolbasaların və digər ət məhsullarının tərkibinə insan orqanizmi üçün təhlükəli olan kimyəvi maddələr vurulur"*

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirdi ki, ölkəyə idxal olunan kolbasa və digər ət məhsulları insan sağlamlığı üçün daha təhlükəlidir: "Yerli məhsulların tərkibində kimyəvi maddələrdən nisbətən az istifadə olunur və bu baxımdan yerli məhsullardan istifadə etmək daha məqsədəuyğundur. Əslində, istehlakçılar bütün hallarda yerli mallara üstünlük verməlidirlər. Uzunmüddətli saxlanma, isti və soyuq şəraitdə xarab olmaması üçün kolbasaların və digər ət məhsullarının tərkibinə insan orqanizmi üçün təhlükəli olan kimyəvi maddələr vurulur. Hesab edirəm ki, yerli mallarda insan sağlamlığı üçün zərərli olan maddələrdən istifadə olunmur.

**Kolbasaların tərkibinə daha çox zərərli maddə olan nitratlar vurulur. Bu maddə standartlara uyğun vurulmadıqda sağlamlıq üçün müəyyən təhlükələr törədə bilər. Nitratın vurulma səbəbi məhsulun yararlılıq müddətini artırmaqdan ibarətdir. Bununla yanaşı, kolbasa və ət məhsullarına dad və rəngverici digər zərərli maddələr də vurulur".**

*Günel CƏLİLOVA*

# Narkotiklərin təsiri altında törədilmiş cinayətlərin sayında artım dinamikası hiss olunur...

**Son bir ildə narkotik istifadəçilərinin törətdikləri cinayətlərin sayının artması ciddi narahatlıq doğurmaqdadır. Məlumatlara görə, Azərbaycanda narkomanlar tərəfindən törədilən cinayətlərin sayı artır. Rəsmi məlumata görə, 2005-ci ildə Azərbaycanda narkomanlar tərəfindən 182 cinayət törədilib.**



## *Əliməmməd Nuriyev: "Bunlar əsasən işsiz-gücsüz gənclərdir və onlar narkotacirlərin pulunu ödəyə bilmədikləri üçün ağır cinayətlərə əl atırlar"*

Sonrakı illərdə cinayət törədən narkomanların sayında getdikcə artma müşahidə edilib. 2010-cu ildə narkomanlar tərəfindən 465, 2015-ci ildə 546, 2016-cı ildə 382, 2017-ci ildə 554, 2018-ci ildə 791 cinayət törədilib.

Məlumatlara görə, 2018-ci ildə Azərbaycanda rəsmi qeydiyyatda olan narkomanların sayı 31 432 nəfər olub. 2018-ci ildə ilk dəfə narkotik istifadəçisi kimi qeydiyyata alınan narkomanların sayı 1995 nəfər təşkil edib. Ötən il 694 nəfər narkoman qeydiyyatdan çıxarılıb. Ümumilikdə, narkotik istifadəçiləri arasında 25-45 yaşarası insanlar üstünlük təşkil edirlər.

Narkomanların törətdiyi cinayətlərin sayının ildən-ilə artmasının səbəblərini şərh edən tanınmış hüquqşünas Əliməmməd Nuriyev "Bakı-Xəbər"ə bildirdi ki, ümumiyyətlə, narkomanları cinayətə vadar edən səbəblər müxtəlifdir. O qeyd etdi ki, narkomanların cinayətlərə al atmasının, cinayət törətməsinin səbəbkarlarından biri narkotacirlərdir. "Təəssüf ki, cənub istiqamətindən Azərbaycana böyük axında narkotik vasitələr gətirilir. Söhbət İran-Azərbaycan sərhədindən gedir. Əfqanıstan, Pakistan, İran kimi ölkələrdən güclü axın var. Əlaqədar qurumlar buna qarşı çox ciddi mübarizə aparırlar. Deyim ki, bu hala qarşı mübarizə yalnız hüquq-mühafizə orqanlarının işi deyil. Burada, eyni zamanda, vətəndaşlarımız da məsuliyyətli olmalı, onlar bu kimi əməllərə qurşanmamalıdırlar. Sərhəd təbii ki, qorunur, amma bir sıra hallarda narkotik vasitələri sərhəd xətlərinin üzərindən tullayırlar. Bunu da sona qədər izləmək çox çətindir. Bilirsiniz ki, həmçinin, Azərbaycanın ərazisinin bir hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğalda saxlanılır. İşğal altında olan Azərbaycan torpaqlarında daha çox narkotik əkilib becərilir, məqsəd də separatçı rejimi qidalandırmaqdır. Bu da böyük problemdir.

Hesab edirəm ki, bu sahədə mövcud olan halların qarşısının alınması üçün maarifçilik işlərinin həyata keçirilməsi vacibdir. Həmçinin, fikrimcə, narkomanların törətdikləri cinayətlərlə bağlı cəzaları sərtləşdirmək lazımdır. Eyni zamanda, narkomanların müalicəsi, reablitasiyası çox vacib bir məsələdir. Kim ki, narkotik vasitələrdən asılıdır, onlara sağlamlığında problem olan şəxs kimi yanaşmaq lazımdır. Narkomanları daha ağır cinayətlərə vadar edən amillərdən biri narkotacirlərdir, bu səbəbdən hesab edirəm ki, narkotacirlərə qarşı daha ağır cəzalar tətbiq edilməlidir. Onlar daha uzunmüddətli həbs cəzası verilməlidir".

*"...narkotacirlərə qarşı daha ağır cəzalar tətbiq edilməlidir"*

Ə.Nuriyevin sözlərinə görə, gənclərin pis vərdişlərdən uzaq durması üçün onların asudə vaxtının səmərəli təşkil edilməsi çox vacibdir. Onun qeyd etdiyinə görə, məktəblər, icra hakimiyyətləri, idman idarələri çalışmalıdırlar ki, yerlərdə idman mərkəzlərinin, idman meydançalarının sayı artsın, ora daha çox uşaq, gənc cəlb edilsin. İdmanın ayrı-ayrı sahələrinin inkişaf etdirilməsi ilə bağlı ciddi dövlət proqramlarının qəbul edilməsinə zərurət olduğunu deyən Ə.Nuriyevin sözlərinə görə, kitabxana şəbəkəsinin genişləndirilməsi, gənclər evlərinin inşası da gənclərin vaxtını səmərəli keçirməsinə yardım edir. "Bilirsiniz ki, narkotikdən istifadə edənlər əsasən gənclərdir. Cinayət törədən narkomanlar arasında da gənclərin sayı üstündür. Bunlar əsasən işsiz-gücsüz gənclərdir və onlar narkotacirlərin pulunu ödəyə bilmədikləri üçün ağır cinayətlərə əl atırlar. Bu həm də böyük sosial bəladır. Düzdür, varlı ailələrdən də narkomanlar çıxır. Sirr deyil ki, çox adam narkotacirliyə varlanmaq mənbəyi kimi yanaşır. Elə narkomanların özləri də bəzi hallarda pul qazanmaq üçün cinayət törədirlər".

Ə.Nuriyevin sözlərinə görə, bəzi kişilər öz həyat yoldaşlarını da narkocinayətlərə vadar edirlər. Onun qeyd etdiyinə görə, narkoman və narkotacirlər qadınlarından narkokuryer kimi istifadə etməklə onları da bu cinayətlərə şərik edirlər.

Ekspertin sözlərinə görə, bu kimi halların qarşısının alınması üçün böyük maarifçilik tədbirləri keçirilməli, məktəblərdə, müəssisələrdə narkomaniya əleyhinə roliklər nümayiş olunmalıdır.

*İradə SARIYEVA*

# Avroittifaq Azərbaycan universitetlərinin tədris proqramlarında bəzi standartları niyə dəyişməyi tövsiyə edir...

**Azərbaycanda ali məktəblərdə tədris prosesi illərdir Boloniya proqramına uyğun şəkildə aparılır. Doğrudur, hələ bəzi ali məktəblərdə həmin proqram tam olaraq tətbiq edilməsə də, böyük əksəriyyətində tətbiq edilib. Azərbaycanda ali təhsil proqramının beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində illərdir işlər görüldüyü bildirilir. Amma beynəlxalq aləmdə standartların dəyişdirilməsi gündəmdədir.**

Avropa İttifaqı Azərbaycanda ali məktəblərin tədris proqramlarına dair standartların dəyişdirilməsini istəyir.

"Azərbaycanda ali məktəblərin tədris proqramlarına dair dövlət standartları barədə qanunlara dəyişiklik edilməlidir. Layihəmizin məqsədi Azərbaycanda ali təhsili dəstəkləmək və gələcəkdə səviyyəsini yüksəltməkdir. Azərbaycanda ali təhsilin Avropa səviyyəsinə çatacağına və onun bir hissəsinə çevriləcəyinə arxayın olmaq istəyirik. Planlarımızda, həmçinin, burada səriştəni və tələbəni əsas götürən təhsili tətbiq etmək də var. Bunun üçün müxtəlif seminarlar, təlimlər, ustad dərsləri keçiririk" - bunu Avropa İttifaqının Azərbaycanda ali təhsilin dəstəklənməsi ilə bağlı tvininq layihəsinin əlaqələndirici rezidenti Elizabet Bidanova təqdimat zamanı bildirib.

Rezident ali təhsilə dair qanunları dəyişdirməyin zəruri olduğunu da vurğulayıb: "Bu daha çox tədris proqramlarına dair dövlət standartlarına aiddir. Biz səriştəni və tələbəni əsas götürən yanaşmaya uyğunlaşdırılacaq 15 öncül bakalavr proqramı seçmişik".

E.Bidanova Azərbaycanda xarici diplomların tanınması məsələsinin də tələbələri narahat edən mühüm məsələ olduğunu deyib: "Bu gün Azərbaycanda xarici diplomun yerli tədris proqramına və qanunlarına uyğunlaşdırılmasını nəzərdə tutan nostrafikasiya prosesi tətbiq olunur. Avropada isə bu məsələyə daha çevik yanaşma var. Buna görə də nostrafikasiya və xarici diplomların tanınma sisteminin islahatı da proqramımızda əksini tapıb".

Qeyd edək ki, hökumətlə Avropa İttifaqı arasında müvafiq saziş çərçivəsində 2018-ci ilin aprel ayından 2020-ci ilin aprel ayınadək (24 ay ərzində) həyata keçirilən sözügedən tvininq layihəsinin dəyəri 1,2 milyon avrodur.

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov "Bakı-Xəbər"ə bildirdi ki, Avropa İttifaqının tvininq layihəsinin Azərbaycandakı əlaqələndiricisinin məhz Azərbaycanda ali təhsilin təhsil standartlarının dəyişdirilməsi ilə bağlı təklifi xeyli aktual bir məsələdir. "Bu standartlar artıq Azərbaycan ali təhsilində formalşmış bir dövlət standartıdır. Bunlar ali təhsil pilləsinin dövlət standartları adlanır. Bu standartlar özündə həm dövlət, həm də özəl ali təhsil müəssisələrini birləşdirir. Yəni bu standartlar mülkiyyət hüququnun kimdə olmasından asılı olmayaraq, respublikadakı bütün ali məktəblərə şamil olunur. Bu standartlar, ilk növbədə, ali təhsilin bakalavr və magistr pilləsini, eyni zamanda, təhsilin idarə olunmasını, keyfiyyət göstəricilərini, infrastruktur, maddi-texniki, tədris bazasını əhatə edir. Burada, həmçinin, ali məktəblərdə təhsil alan tələbələrin bilik səviyyəsi, tədrisin keyfiyyətini əhatə edir. Azərbaycanda ali təhsilin standartlarının dəyişməsi dedikdə bu sistemdə mövcud olan hər şey dəyişməlidir və bu sahədə yeni standartlar tətbiq edilməlidir. Bütün bunların dəyişdirilməsi, Avropa standartlarına uyğunlaşdırılması çox önəmlidir. Hesab edirəm ki, bu xeyli ciddi məsələdir. Təhsil Nazirliyi artıq nəzərdə tutur ki, 2019-2020-ci illərdə Azərbaycanın ali təhsil məktəblərində tədrisin keyfiyyət səviyyəsi yaxşılaşdırılsın. Bu xeyli zaman tələb edən əhatəli bir məsələdir. Azərbaycanda ali təhsilin idarə olunması ilə Avropada ali təhsilin idarə olunması arasında xeyli fərq var. Ona görə də əsas məsələ odur ki, tələbələrimiz yeni texnologiyalara yiyələnən, informasiyalarla zəngin, çevik, bacarıqlı mütəxəssislər kimi yetişdirilsin. Cəmiyyətin yüksək səviyyəli və rəqabətə dözümlü kadr tələbatının ödənilməsi vacibdir. Təbii ki, bu, ali təhsilin məzmununda çox vacib məqamlardır. Təhsilin idarə olunması sahəsində aşkarlıq, şəffaflıq, demokratik prinsiplər qorunmalıdır. Bu istiqamətin də Avropa standartlarına uyğunlaşmasına ehtiyac var. Ali təhsilin idarə edilməsi orqanlarının fəaliyyətinə baxılmalıdır, bu sahənin təkmilləşməsinə ehtiyac var. Bu məsələ elmi şuralar tərəfindən həyata keçirilir. Ali məktəblərə rektor təyinatı məsələsi də olduqca vacib bir məsələdir. Eyni zamanda, ali məktəblərin maddi-texniki bazasının yenilənməsi əsasdır, bizim ali təhsil müəssisələrimizin maddi-texniki bazası Avropa standartlarından geri qalır. Bu sahədə ciddi inkişafa ehtiyac var. Distant təhsil məsələsi gündəmdədir, Azərbaycanda hələ də distant təhsil tətbiq edilmir, bu sahə də Avropa standartlarına uyğunlaşdırılmalıdır. Distant təhsildə həm bakalavr, həm də magistrlərlə bağlı proqramlara baxılması vacibdir. Ali məktəblərin tədris proqramlarının standartlarının dəyişdirilməsi məsələsi olduqca əhatəli bir sənədlər toplusudur ki, burada heç nə diqqətdən yayınmamalıdır. Bu sahənin ciddi şəkildə dəyişdirilməsinə ehtiyac var".

İ.Orucov, həmçinin, vurğuladı ki, burada həm də ali təhsil verənlərin hansı kriteriyalara cavab verməsi, tələbləri ödəyib-ödəyə bilməməsi də nəzərə alınmalıdır. O qeyd etdi ki, burada tələbələrin biliklərinin qiymətləndirilməsinə də xüsusi yanaşma olmalıdır: "Bakalavrların biliklərinin qiymətləndirilməsi ilə bağlı vahid standartların qəbul olunmasına da ciddi ehtiyac var və burada da Avropa təcrübəsindən istifadə etmək olar. Bu istiqamətdə fərqli fikirlər mövcud olur. Ali təhsil proqramları ilə bağlı da yeniliklər lazımdır. Azərbaycanda Avropa İttifaqının tvininq layihəsini həyata keçirməsi ilə bağlı işlərin məqsədi odur ki, Azərbaycan ali məktəbləri Avropa standartlarının tələblərinə cavab versinlər. Bu çox zaman tələb edən və əhatəli məsələdir. Düşünürəm ki, bu məsələ ilə bağlı Azərbaycan hökuməti və Avropa İttifaqı arasında müvafiq saziş imzalanıb və bu sazişə uyğun olaraq bu istiqamətdə ciddi işlərin görülməsinə həm Təhsil Nazirliyi, həm də ölkəmizin siyasi rəhbərliyi tərəfindən istək var. Mütləq şəkildə Azərbaycanın ali təhsil müəssisələrinin səviyyəsi və ali təhsilin dövlət standartları Avropa standartlarına cavab verməli, bunun üçün də bu istiqamətdə ciddi dəyişikliklər edilməlidir" - deyə İ.Orucov qeyd etdi.



**İlqar Orucov:** *"Azərbaycanın ali təhsil müəssisələrinin səviyyəsi və ali təhsilin dövlət standartları Avropa standartlarına cavab verməli, bunun üçün..."*

**Kamran Əsədov:** *"Bütün universitetlərimizin dərs proqramları köhnəlib"*

Tanınmış təhsil eksperti Kamran Əsədovun fikrincə, Azərbaycanda ali təhsil sahəsində standartlar dəyişməlidir. "İlk növbədə qeyd edim ki, müasir dünyanın çağırışları şərtləri günü-gündən kəskinləşən əmək bazarının tələblərini də aktuallaşdırır. Artıq işəgötürənlər universitet məzunlarının yüksək peşəkarlığı, səriştəlilik qabiliyyətinə əvvəlkindən daha ciddi şəkildə önəm verməyə başlayıb. Dünyanın nüfuzlu ali məktəblərində tətbiq olunan təhsil proqramları və sillabusları hər il əmək bazarının tələblərinə və müasir standartlara uyğunlaşdırılır. İxtisas kafedraları ilə birlikdə bakalavriat və magistratura səviyyələri üzrə tədris standartlarını məhz onların tələblərinə uyğun şəkildə təmin edirlər. Məhz ona görədir ki, həmin universitetlərin beynəlxalq nüfuzu yüksəkdir və məzunlarının hamısı işlə təmin olunur, əmək bazarında uğur əldə edirlər.

Bizdə isə yerli müəlliflərin yazdığı dərsliklərin keyfiyyətsiz və əksər hissəsinin plagiat olmasını müşahidə edirik.

Azərbaycan ali təhsil müəssisələrinin işəgötürənlərlə əməkdaşlıq, məzunların uğurlu olması, işəgötürənlərin kampusda iştirakı və işlə təmin edilməsi kimi prinsiplərə uyğun gəlmədiyini görürük. Deməli olar ki, heç bir universitet əmək bazarını araşdırmır, onlarla əməkdaşlıq etmir. Hazırda işəgötürən ölkə universitetlərinin məzunları arasında özünə layiq bildiyi mütəxəssisi axtarıb tapa bilmir. Universitetlərimiz tələbələri yüksək ixtisaslı, peşəkar mütəxəssis kimi yetişdirmək gücünə malik deyil.

Dünyanın ən yaxşı universitetlərinin çoxunun hər il yüksək nailiyyətləri olan məzunlar buraxmasına baxmayaraq, işəgötürənlər tez-tez narahatlıqla bildirirlər ki, akademik müəssisələr öz tələbələrini əmək bazarına hazırlamaq üçün kifayət qədər iş görmürlər. Məzunları əmək bazarında asanlıqla iş tapan ali məktəblərin siyahısına ABŞ-ın Massaçusets Texnologiya İnstitutu (MIT) başçılıq edir. Dünyanın ən nüfuzlu texnologiya yönümlü ali məktəbinin məzunlarına əmək bazarında xüsusi tələbat var. MIT bu il məzunların işlə təmin edilməsi keyfiyyətinə görə 4 pillə önə keçərək bu kateqoriyada ən yaxşı ali məktəb statusunu qazanıb. Ali məktəb həm də dünyanın ən yaxşı universitetlərinin qlobal reytinqinə də başçılıq edir.

Təəssüflər olsun ki, bu gün ölkəmizdə xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla, digər universitetlər təyinat vermir. Bir çox halda onlar heç məzunlarının sonrakı taleyi ilə də maraqlanmırlar.

Ona görə də hesab edirəm ki, bütün universitetlərimiz maddi-texniki bazalarını yeniləməlidirlər. Çünki onların hazırda laboratoriyaları, infrastrukturları, mühazirə mətnləri keçən əsrdən qalıb. Universitetlərimiz dərs proqramlarını, mövzuları, dərslikləri dəyişməlidirlər. Bütün universitetlərimizin dərs proqramları köhnəlib, onları müasir dövrün və əmək bazarının tələblərinə uyğunlaşdırmalıdırlar.

***İradə SARIYEVA***

№ 220 (4118) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

11 DEKABR 2019-cu il

www.baki-xeber.com





**Qoç** - Yeni bir layihənin başlanması üçün uğurlu gündür. Özünüzü kommersiya, yaxud yaradıcı sahələrin birində sınaya bilərsiniz. Ünsiyyət, insanların çox olduğu yerlərə getmək, ziyafətlərdə iştirak üçün yaxşı gündür.



**Buğa** - Bu narahat günün çox hissəsini ailə qayğılarına və problemlərə həsr etməli olacaqsınız. Özünüzü tamamilə rutin işlərə həsr etməyin, çalışın, doğrudan da, xoşunuza gələn məşğuliyyət tapasınız.



**Əkizlər** - Sağlam düşüncəni yadına salan yoxdur. Yeni bir layihənin gerçəkləşdirilməsinə başlamaq olar. Ancaq bu zaman bilik və gücünüzü düzgün qiymətləndirməlisiniz. Uğura güvənməyin: qələbə üçün zəhmət çəkmək gərəkdir.



**Xərçəng** - Heç də düşündüyünüz kimi pis gün deyil. Ciddi nailiyyət və başgicəlləndirici qələbə qazanacağınıza hazırlaşmayın. Çox mümkündür ki, bunların miqyası xırda olacaq, amma kefiniz korlanmayacaq.



**Şir** - Şərait bəzən o qədər də yaxşı olmasa da, inadınız sayəsində çox şeyə nail olursunuz. Tez-tez özünüzü nahaqdan riskə ataraq düşünülməmiş hərəkətlər edirsiniz. Pul ala bilərsiniz.



**Qız** - Parlaq, yaddaqalan gündür. Nikbin, mərhəmətli, cazibədar və həyatsevərsiniz. Təəccüblü deyil ki, çoxları vaxtlarını sizinlə keçirmək istəyirlər. Yaradıcı potensialınız yüksəkdir, cari problemlərin orijinal həll yollarını tapırsınız.



**Tərəzi** - Ciddiləşin, o zaman heyrətamiz nəticələr qazana bilərsiniz. Nailiyyətləriniz inanılmaz ola bilər, ancaq bu zaman gərək xırdalıqları unutmayasınız, başqalarının diqqət yetirmədiklərini görməyə çalışın.



**Əqrəb** - Mərhəmət və aliəqiqlıq göstərib, ehtiyacı olanlara qayğı göstərməyə, çətin şəraitdə qalan insanlara yardım etməyə meyllisiniz. Sizin layiqli davranışınız mükafatsız qalmır. Hadisələrin uğurlu inkişafı çoxdankı ideyalarınızı gerçəkləşdirməyə imkan verəcək.



**Oxatan** - Özünüzə qarşı tələbkarsınız. Bu, çox faydalıdır, çünki öz hisslərinizi ayırd etməli, bu yaxınlarda etdiyiniz hərəkətləri yenidən qiymətləndirməlisiniz. Əsas odur ki, öz nailiyyətləriniz barədə unutmayasınız, yoxsa, əhvalınız korlanacaq.



**Oğlaq** - Bir çox planlar pozula bilər, ancaq çətin ki, bu, kiminsə qanını qaraltsın: şəraitə alışmaq məcburiyyəti, nədənsə, qıcıq deyil, entuziazm yaradır. İdeyalarla bölüşmək, onları müzakirəyə çıxarmaq, həmçinin həmfikir axtarmaq olar.



**Dolça** - Gözlənilməz kəşflər və faydalı tapıntılar günüdür. Məntiqlə intuisiya arasında balansı tapınca rəqibləriniz qarşısında 1:0 üstünlük qazanacaqsınız. Qəfil xəbərlər sizə ilham verir, hiss edirsiniz ki, çox şeyə qadirsiniz.



**Balıqlar** - Asan gün deyil. Baş sındırmalı olacaqsınız və intellektual zəhmət sizə xeyli həzz verəcək. Üstəlik, nəhayət ki, problemlərin həllini tapacaqsınız. Yeni, özünüzlə qürrələnməyə daha bir imkan yaranır.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

# Robot iflic insanları müalicə edəcək

**Yaponiyanın "Toyota Motor Corporation" şirkəti tərəfindən yaradılan "Welwalk WW-2000" robotu iflic olan insanların reabilitasiya etmək üçün hazırlanıb.**




"Ted.az" bildirir ki, bu robot daha əvvəl hazırlanmış "Welwalk" seriyasının inkişaf etdirilmiş modelidir. "Welwalk WW-2000" özünün sələfi olan "Welwak WW-1000" modeli ilə eyni vəzifələrin öhdəsindən gələ bilir. Həmçinin yeni maşın daha yüksək səmərəliliyi olan reabilitasiya tədbirlərini həyata keçirmək bacarığına malikdir. Bundan əlavə, mütəxəssislər yeni modelin saxlanmasının və yığılmasının daha asan olduğunu, bu səbəbdən tibb müəssisələrində robotların "fəaliyyəti"nin daha da genişlənəcəyini qeyd ediblər. Robot müəyyən dərəcədə iflic olmuş xəstələrin reabilitasiyasında həkimləri və mütəxəssisləri əvəz edə biləcək. "Welwalk WW-2000" mütəxəssislərə reabilitasiyanın gedişatını izləmək və lazımi düzəlişlər etmək imkanı verən çoxsaylı kameralarla təchiz olunub. Həmçinin yeni model robotda xəstələrin hərəkətlərinin düzgün şəkildə tənzimlənməsi üçün motivasiya oyunları da quraşdırılıb. Xatırladaq ki, "Toyota Motor Corporation" 2007-ci ildən xəstələrin reabilitasiyası üçün robotlar yaradır. 2018-ci ildə 8-ci mükafatını alan "Welwalk WW-1000" modeli hazırda Yaponiyanın 80 tibb məntəqəsində istifadə olunur.



## İnsanın yaddaşı dola bilərmi...

**Əsrlər boyu insan yaddaşı haqqında müxtəlif ehtimallar və suallar insanları düşündürüb. Onlardan biridə yaddaşımızın nə zamansa dolub-dolmaması ilə əlaqədardır.**

Artıq insanları düşündürən bu sualın cavabı tapılıb. "Medicina.az" xəbər verir ki, amerikalı professor P.Reber bildirib ki, insanın yaddaşının dolması mümkündür. Professorun sözlərinə görə, insanların ömrü yetmədiyi üçün bu halla üzləşən olmayıb. Lakin faktiki olaraq yaddaşımızın dolması fikri doğrudur. Unutmaq olmaz ki, insan beyni təxminən 2 kvardilliyon bayt həcmində yaddaşa malikdir. Əgər insan beyni yüksək keyfiyyətli və daimi olaraq videoyazı qeydə alan kamera olsaydı, onun yaddaşı bizə 300 il bəs edərdi. Məsələn, həyatınız boyu öyrənəcəyiniz dillərin sayı yaşadığınız illər və göstərdiyiniz səylə ölçülür. Bu limit yaddaşda yox həyatın uzunluğundadır. "Mənim beynim çox yüklənib", - deyən insanlar sadəcə olaraq, ondan istifadə etməyi bacarmırlar. Onları da anlamaq asandır. Təsəvvür edin ki, yaddaşında milyonlarla mahnı olan hər hansı bir qadjetdən yaxşı axtarış sistemi olmadan özünüzə lazım olan mahnını tapmaq çətindir. Axtarış sistemi isə öz üzərində işləyən və daim öyrənən insanlarda yaranır.

## Elan

Kazımov Magamed Qurban oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## "Bakcell"in stendi "Ən yaxşı korporativ üslub" sertifikatına layiq görüldü

**"Bakcell" şirkəti 25-ci yubiley Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisində təqdim etdiyi stendə görə "Ən yaxşı korporativ üslub" sertifikatına layiq görülüb. Sertifikat "BakuTel-2019" sərgisinin təşkilatçısı "Caspian Event Organizers" (CEO) tərəfindən təqdim edilib.**

Şirkət öz ənənəsinə sadiq qalaraq stendində Azərbaycanın ən böyük mobil şəbəkəsini və ən sürətli mobil internet xidmətini, özünün son nailiyyətlərini nümayiş etdirib, həmçinin, bir sıra əyləncəli tədbirlər, maraqlı oyunlar və müsabiqələr təşkil edib. Bundan əlavə, "Bakcell" öz stendində şirkət üçün yeni ayrılan "099" prefiksinin də yaxın gələcəkdə istifadəyə veriləcəyini elan edib.

"Bakutel sərgisi şirkətimizin şəbəkəsinin üstünlüklərini nümayiş etdirmək üçün əla fürsət yaradıb. Bu il beynəlxalq nüfuza malik olan "Ookla" şirkəti növbəti dəfə "Bakcell" şirkətini Azərbaycanın ən sürətli mobil şəbəkəsi adlandırıb. Mobil operator abunəçisi üçün ən vacib olan məsələ şəbəkənin keyfiyyəti və sürətidir. Biz isə bu sahədə üstünlüyümüzü praktiki şəkildə ardıcıl olaraq 3-cü dəfə sübut etmişik!", - deyə "Bakcell" şirkətinin baş kommersiya direktoru Reinhard Zuba bildirib.

Belə ki, "Bakutel-2019" ərzində "Bakcell" stendinə gəlmiş minlərlə qonaq "Bakcell" şəbəkəsinin üstünlüyü və ölkənin telekommunikasiya bazarında ilk və ən reytinqli virtual müştəri xidmətləri aləti olan "Mənim Bakcellim" mobil tətbiqetməsinin yenilikləri ilə tanış olub, Azərbaycan gəncləri üçün yeni imkanlar yaradan "AppLab" startap inkubasiya proqramı barədə məlumat almaq və hədiyyələr qazanmaq üçün "Ulduzum" loyallıq proqramının oyunu, lotereyalar və digər oyunlarda iştirak etmək imkanını qazanıb.

"Bakcell"in "Bakutel-2019" sərgisində iştirakı ilə bağlı hazırlanmış videoçarxa burada baxa bilərsiniz: https://youtu.be/MsdgGbZHJ94

## İnək avtomobil yoluna çıxdı, sahibi cərimələndi

**Türkiyənin Kayseri bölgəsində inəyi maşın yoluna çıxan Duran Altunç yol polisi tərəfindən cəzalandırılıb. "Milli.Az" bildirir ki, yol hərəkəti qaydalarının müvafiq maddəsinə uyğun olaraq ona 108 lirəlik cəza tətbiq olunub. Fermerliklə pul qazanan Duran Altunç başına gələnləri qeyri-real hesab edir.**



O, başına gələnləri belə izah edir: "Belə bir cəza aldıq. İndiyə qədər görülməmiş cəza. Oğluma dedim ki, gedək, inəyimizə sürücülük vəsiqəsi alaq. Vəsiqəsi olsa, cəza yazmazlar. Əslində, biz heç vaxt inəyi başsız buraxmamışıq. İndi deyirlər ki, maşın yoluna çıxıb. Eşidənlər buna inanmır. Hamı zəng edib soruşur ki, bu, doğrudan da olub.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*
*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**
Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.